QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 211 (8804) ŞƏNBƏ, 2 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Zəngəzur dəhlizi Azərbaycanın yeni güc mərkəzi olacaq

## Prezident İlham Əliyev bu təşəbbüsü də reallığa çevirəcək



**İkinci Qarabağ müharibəsində əldə edilən parlaq Qələbə ölkəmizin siyasi nüfuzunun, iqtisadi-hərbi qüdrətinin təsdiqinə çevrilib, eyni zamanda, regionumuzda tamamilə yeni geosiyasi və geoiqtisadi reallıqlar yaranmasını şərtləndirib. Azərbaycan dünyada öz sözü, mövqeyi, müstəqil xarici siyasəti olan ölkə imicini daha da möhkəmləndirib.**

İkinci Qarabağ müharibəsindəki şanlı zəfərlə regionda yeni reallıqlar yaradan Azərbaycan hazırda bütün addımları postmüharibə dövrünün tələblərinə uyğun atır. Ölkənin iqtisadi qüdrəti həm pandemiya ilə mübarizə tədbirlərinin, həm də Qarabağda böyük tikinti-quruculuq işlərinin aparılmasına imkan verir.

### Qalib Komandan Ermənistana çıxış yolu da göstərir

Bu gün Azərbaycan əsas diqqəti məhz Qarabağın dirçəlişi, Zəngəzur dəhlizinin açılması istiqamətinə yönəldib. Görülən işlər də göz önündədir.

Amma məğlub Ermənistan yenə də məkrli niyyətini nümayiş etdirərək bu prosesin, yeni dəhlizin açılması istiqamətində üzərinə götürdüyü öhdəliyi yerinə yetirmək istəmir. Sülh müqaviləsi imzalamaqdan da boyun qaçırır. Azərbaycan isə qalib ölkə kimi Ermənistanın 10 noyabr Bəyanatında üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsini gözləyir.

Prezident İlham Əliyev müharibədən sonrakı bütün çıxışlarında bəyan edib ki, regionun inkişafı naminə icra ediləcək hər bir layihə özündən sonra digər layihənin reallaşmasına real zəmin yarada bilər. Ona görə də ilk növbədə, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı və sülh müqaviləsinə imza atmalıdır.

*Ardı 3-cü səh.*

## Bakı şəhəri Suraxanı rayonunun Zığ-Hövsan avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əlli səkkiz min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Zığ-Hövsan avtomobil yolunun yenidən qurulması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 4,9 milyon (dörd milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2021-ci il*




**Zəfərin izi ilə**

## İlham Əliyev bizi Kəlbəcərə qalib vətəndaş kimi qaytardı

**Düz 28 il, 5 ay, 9 gün əvvəl, böyük kədər və məğlubiyyət hissi ilə Kəlbəcəri tərk etdiyim yolu indi böyük sevinc, qələbə duyğusu ilə geri dönürdüm...**

Bu, haqqın və ədalətin zəfəri idi ki, düz 28 il əvvəl yurdundan didərgin salınan məğlub Azərbaycanın vətəndaşı kimi çıxdığım Vətənimə qüdrətli və qalib Azərbaycanın fəxarətli vətəndaşı kimi qayıdırdım...

Bəli, illər əvvəl məni bu yolla Kəlbəcərdən uzaqlaşdıran Azərbaycanın müvəqqəti məğlubiyyəti olmuşdu...

Bu illər ərzində çox fikirləşirdim ki, ozamankı məğlubiyyətimizin səbəbi nə idi? Və indi fikirləşirəm ki, Zəfərin səbəbi nə oldu?..

Cavab sadə və aydındır: hər şeyi həll edən lider amilidir. O dövrdə Azərbaycanı birləşdirən güclü lider olmadığına və o lider Azərbaycan Ordusuna Ali Baş Komandanlıq edə bilmədiyinə görə, biz Kəlbəcəri məğlub kimi tərk etmişdik.

*Ardı 4-cü səh.*

## "Biz hərb istəmirik, hərbə hazırıq"

### Azərbaycan nə qədər sülh və tərəqqi ölkəsi olsa da, "dəmir yumruğ"u yerindədir

**Azərbaycanın XXI əsrin hərb tarixinə yeni müharibə taktikası kimi daxil olan 44 günlük Vətən savaşındakı tarixi qələbəsindən təxminən 11 ay vaxt keçib.**

Bu, öz işğalçılıq siyasətinin qurbanı olan Ermənistanın məğlubiyyətdən dərs götürüb haqq yoluna dönməsi üçün az zaman deyil. Xüsusən də 44 gün ərzində başına dəyən "dəmir yumruğ"un ağrısını indiyədək yaşayırsa və Allah bilir bundan sonra da nə qədər yaşayacaqsa. Başqası olsaydı, dilini qarnına qoyub bir də nəinki Qarabağ sözünü, heç "Q" hərfini də ağzına almazdı. Amma nə edəsən ki, Ermənistan başqaları kimi ağıllı deyil.

Hərçənd əzilmiş başdan ağıl gözləmək sadəlövhlükdür, yenə də güman etmək olardı ki, erməni siyasi və hərbi elitası indiki durumlarında növbəti savaşa yox, sülhə üstünlük verəcək. Lakin görünən odur ki, qozbel kimi onları da qəbir düzəldər. Yoxsa, Azərbaycanla indi də yalan və böhtanla dolu perspektivsiz söz savaşına çıxmazdılar ki...

*Ardı 3-cü səh.*




## Azərbaycanın Gürcüstan iqtisadiyyatına yatırdığı sərmayənin xeyli hissəsi qazlaşdırmaya yönəldilir

2005-ci ilin oktyabr ayında Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin Azərbaycan və Gürcüstan hissələri birləşdi. Beləliklə, üç ölkənin ərazisindən keçən kəmərin Gürcüstan hissəsi də istifadəyə verildi.

Azərbaycan neftinin Türkiyənin Ceyhan terminalına çatmasına 7-8 ay qalırdı. Başqa sözlə, Xəzərin Azərbaycan sektorundan çıxarılan karbohidrogenlərin qonşu Gürcüstandan keçərək dünya bazarlarına uğurlu yolu başlanırdı.

Növbəti il BTC tam sistem kimi istifadəyə verildi, eləcə də Cənubi Qafqaz Boru Kəməri (CQBK) Azərbaycan qazını Gürcüstana çatdırdı. Bu, Azərbaycan-Gürcüstan əməkdaşlıq və tərəfdaşlığının getdikcə möhkəmlənməsi, gələcəkdə həyata keçiriləcək daha nəhəng layihələrin başlanğıcı, bünövrəsi idi.

Əslində, ölkəmiz tərəfindən Gürcüstan iqtisadiyyatına sərmayələrin yatırılmasına da 2006-cı ildən başlanıb. Azərbaycan və Gürcüstan arasında əməkdaşlıq yüksək səviyyədə davam edir. Təkcə son illər ərzində SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) Gürcüstan iqtisadiyyatına 1,2 milyard dollar həcmində investisiya yönəldib.

Hazırda SOCAR-ın Gürcüstanda Kulevi Neft Terminalı, qazpaylayıcı şəbəkəsi və yanacaqdoldurma məntəqələri fəaliyyət göstərir. "SOCAR Georgia Petroleum" MMC onlarca yanacaqdoldurma məntəqəsi, xidmət mərkəzləri və neft terminalına malik olduğu Gürcüstan bazarında Azərbaycanın və üçüncü tərəflərin neft məhsullarının topdan və pərakəndə satışını təşkil edir. "SOCAR Georgia Gas" MMC qonşu ölkənin regionlarına təbii qaz tədarükü və paylanmasını həyata keçirir, yerli qaz şəbəkəsini idarə etməklə minlərlə abonentə xidmət göstərir.

SOCAR kommersiya fəaliyyəti ilə yanaşı, Gürcüstanda müxtəlif sosialyönümlü layihələri də reallaşdırır. Bu layihələrin bir hissəsi Gürcüstanda yaşayan soydaşlarımızın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına və cəmiyyətə daha səmərəli inteqrasiya olunmasına yönəldilir.

*Ardı 5-ci səh.*

## Tovuzlular bu il də bol kartof yetişdiriblər



Qərb bölgəsində böyük rayonlardan olan Tovuzun siması regional inkişaf dövlət proqramlarının icrası nəticəsində başdan-başa dəyişmiş, əhalinin həyat səviyyəsi yüksəlmişdir. Bu gün rayon sakinlərinin işıq, qaz, su problemi yoxdur. Əsasən kənd təsərrüfatında çalışan tovuzlular aqrar sektorun bütün sahələrində hər il uğurlu nəticələrə nail olurlar.

Belə sahələrdən biri də kartofçuluqdur. Xüsusilə son illər rayonda istehsal olunan kartof demək olar ki, rekord həddə çatmışdır. Təkcə keçən il rayon sakinləri 6 min 748 hektardan 174 min 453 ton məhsul götürmüşlər. Bir neçə ildir ki, fermerlər kartof istehsalında qabaqcıl texnologiyalara üstünlük verirlər. Belə ki, əkin sahələrini azaltmaqla daha məhsuldar toxum sortları əkir, nəticədə bol məhsul əldə edirlər. Əkilməmiş sahələrdə isə digər məhsullar yetişdirirlər. Bunun da sayəsində rayonda kartofla yanaşı, başqa məhsulların da istehsalı artır.

*Ardı 5-ci səh.*



## "Qarabağ" Kiprdə "Omoniya"ya ustad dərsi verdi

### Ağdamlılar Vətənə 4:1 hesablı qələbə ilə döndülər

Futbol üzrə Avropa konfrans Liqasının qrup mərhələsində yer alan Ağdamın "Qarabağ" komandası xalqımıza və milyonlarla pərəstişkarlarına növbəti dəfə inamlı oyun və parlaq qələbə bəxş etdi.

Kipr çempionu "Omoniya" klubu ilə səfər matçına çıxan ağdamlılar ilk dəqiqələrdən təşəbbüsü ələ keçirib rəqib qapısı qarşısında ardarda təhlükəli vəziyyətlər yaradırdı.

*Ardı 7-ci səh.*

## Müharibədə dizçökdürülən Ermənistan yeni fəlakətlə üzləşib

### Ölkədən köç edənlərin sayı sürətlə artmaqdadır

**Sentyabrın 27-də Azərbaycanda qeyd olunan Anım günü Ermənistana hələ də şok yaşatmaqda davam edir. Bu da səbəbsiz deyil.**

Azərbaycandan fərqli olaraq İkinci Qarabağ müharibəsinin başlamasının birinci ildönümünü Ermənistan matəm kimi qeyd etdi. Bu fonda indi Ermənistanda əsas diqqət ona yönəldilir ki, Azərbaycanı qəzəbləndirmək lazım deyil. Bunu xüsusən də İkinci Qarabağ müharibəsində iştirak edənlər xüsusi olaraq vurğulayırlar.

*Ardı 7-ci səh.*

## Azərbaycan Respublikası Prezidentinin “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 24 avqust tarixli 235 nömrəli və “Ortamüddətli xərclər çərçivəsinin icrasının təmin edilməsi ilə bağlı əlavə tədbirlər və “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2019-cu il 4 fevral tarixli 513 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1685; 2019, № 2, maddə 212) ilə təsdiq edilmiş “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”nın 4.17-ci və 4.19-cu bəndlərində “Maliyyə Sabitliyi” sözləri “Azərbaycan Respublikasının İqtisadi” sözləri ilə əvəz edilsin.

2. “Ortamüddətli xərclər çərçivəsinin icrasının təmin edilməsi ilə bağlı əlavə tədbirlər və “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 4 fevral tarixli 513 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 212) 1-ci və 2-ci hissələrində “Maliyyə Sabitliyi” sözləri “İqtisadi” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2021-ci il*

## “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047) 4-cü hissəsində “895” rəqəmləri “995” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2021-ci il*

# Bakı Konqres Mərkəzində “Nəsillərin görüşü” adlı konfrans keçirilib

## Konfransın sonunda Prezident İlham Əliyevə müraciət ünvanlanıb

Oktyabrın 1-də Bakı Konqres Mərkəzində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən “Nəsillərin görüşü” adlı konfrans keçirilib.





AZƏRTAC xəbər verir ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbəyə həsr edilən konfransda çıxış edən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarova tədbir iştirakçılarını salamlayıb, Azərbaycan xalqının tarixi Zəfəri münasibətilə bir araya gəlməkdən məmnunluğunu bildirib. F.Səttarova Azərbaycan xalqının, ordumuzun qəhrəman əsgər və zabitlərinin Vətən müharibəsində əsl qəhrəmanlıq və fədakarlıq nümunəsi göstərdiklərini vurğulayıb.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda həyatını qurban verən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədr müavini, Prezident Administrasiyasının məsul əməkdaşı Vüsal Quliyev çıxış edərək tədbirin yaşlı və gənc nəsillərin görüşü baxımından əhəmiyyətindən danışıb. Bildirib ki, 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər xalqımızın, sadəcə, bu günü deyil, həm də gələcəyi baxımından müstəsna rol oynayıb. O, xalqımızı bu Zəfərə qovuşduran Prezident, Müzəffər Ali Baş Komandana, şanlı Ordumuza, şəhidlərimizə və qazilərimizə minnətdarlığını ifadə edib. Bildirib ki, 44 günlük Vətən müharibəsində erməni faşizmi üzərində qazanılan bu mühüm Qələbə daim tarixdə qalacaq. Bu Qələbə xalqımızın, Prezidentimizin və dövlətimizin sivil dünya qarşısında böyük xidmətidir.

Ölkəmizdə 100-ə yaxın veteranlar təşkilatının fəaliyyət göstərdiyini qeyd edən V.Quliyev veteranlarla, şəhid ailələri ilə əlaqədar təşkilatlarda fəaliyyətin daha da gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Qeyd edilib ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsi, Birinci Qarabağ, Aprel döyüşləri və Vətən müharibəsi veteranlarının gənc və yaşlı nəsil ilə görüşünün keçirilməsi mühüm əhəmiyyət kəsb edir. O, Azərbaycanın veteran təşkilatlarının beynəlxalq əməkdaşlığı gücləndirməsinin önəmini vurğulayıb.

Konfransda gənclər və idman nazirinin müavini İntiqam Babayev Vətən müharibəsində qazanılan Qələbənin önəminə diqqət çəkib. Nazir müavini bu Zəfərin qazanılmasında ölkə gəncliyinin yaxından iştirak etdiyini, dövlətimizin ərazi bütövlüyünün bərpası uğrunda böyük əzmkarlıq, vətənpərvərlik və qəhrəmanlıq nümunələri göstərdiyini vurğulayıb.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin nümayəndəsi, polkovnik Elşad Əbilov veteranlar və dövlət qurumlarının nümayəndələri də Vətən müharibəsindəki tarixi Qələbənin Azərbaycan dövləti və xalqının tarixində mühüm yer tutduğunu, dövlətimizin gücünə güc qatdığını, onun inkişafı üçün daha geniş perspektivlər açdığını qeyd ediblər.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov konfransda çıxış edərək Vətən müharibəsindəki tarixi Zəfərin təkcə Azərbaycanın deyil, bütün regionun həyatında yeni səhifə açdığına diqqəti cəlb edib.

Tədbirin sonunda konfrans iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul olunub.

Konfransın yekununda vətənpərvərlik mövzusunda mahnılar səsləndirilib.

# İdarələrarası Mərkəzin “Enerji təminatı məsələləri üzrə” İşçi Qrupunun 28-ci iclası



**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin “Enerji təminatı məsələləri” İşçi Qrupunun videokonfrans formatında növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, İşçi qrupa daxil olan aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirak etdiyi iclasda regiondakı enerji obyektlərinin yenidən qurulması, zəruri infrastrukturun bərpası və ötən iclasda qəbul edilmiş qərarların icrası istiqamətində aparılan işlərin icra vəziyyəti haqqında məlumat verilib. Bildirilib ki, işlərin təyin olunmuş müddətdə yekunlaşdırılması üçün işğaldan azad edilmiş ərazilərdə müvafiq qurumlar tərəfindən hazırda görülən və planlaşdırılan işlərin əlaqələndirilməsi, koordinasiyalı fəaliyyət və məlumat mübadiləsinin intensivliyinin daha da artırılması zəruri məsələlərdəndir.

İclas çərçivəsində Azərbaycan Dövlət İqtisad Universitetinin Nizami Gəncəvi adına Dayanıqlı İnkişaf və Yaşıl İqtisadiyyat Tədqiqat Mərkəzi tərəfindən iqtisadi, ekoloji və sosial faydaları - tullantıların və enerji istehlakının azaldılması və optimallaşdırılmasını ehtiva edən “Eko-innovasiyalar və eko-sənaye parkları” adlı məruzə dinlənilib. Məruzədə müxtəlif ölkələrin ekoloji cəhətdən daha səmərəli sənaye parklarının yaradılması üzrə təcrübəsi haqqında məlumat verilib.

Şuşa şəhərində strateji obyektlərin elektrik və istilik təchizatı ilə bağlı görülən işlərin həftəlik əsasda monitorinq edildiyi bildirilib. Növbəti dəfə yerində baxış keçirilməsi yolu ilə əldə edilmiş məlumatların təhlilinə dair təqdimat nümayiş etdirilib. Qazanxanaların, əlaqədar elektrik yarımstansiyalarının, məhəllədaxili və binadaxili istilik sistemlərinin qurulması, həmçinin qazanxanaların su ilə təminatına dair görülmüş işlərlə bağlı cari vəziyyət nəzərdən keçirilib.

İşğaldan azad edilmiş Cəbrayıl rayonu ərazisindəki “Xudafərin” və “Qız Qalası” su elektrik stansiyalarının tikintisi ilə bağlı görülən işlərə dair müzakirələr aparılıb.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə qoşulmanın və məlumat mübadiləsinin vəziyyətinə dair hesabat nəzərdən keçirilib. İşçi qrupa daxil olan aidiyyəti dövlət qurumlarının əksəriyyətinin sistemə tam olaraq qoşulduğu bildirilib.

İşçi qrupunun müvafiq iclaslarında qəbul edilmiş qərarların icrasından irəli gələn digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# ADA Universiteti yeni təhsil proqramına başlayıb





ADA Universiteti “Bir müəllimin manifesti” ixtisasartırma proqramına başlayıb.



AZƏRTAC xəbər verir ki, oktyabrın 1-də ADA Universiteti milli təhsil sistemimizin başlanğıc nöqtəsi hesab olunan Qazax Müəllimlər Seminariyasının tarixi binası qarşısında tədbir keçirib.

Tədbirdə universitet “Bir müəllimin manifesti” ixtisasartırma proqramına hazırlıqların tamamlandığını və bu gündən etibarən proqramın öz fəaliyyətinə başladığını elan edib.

Rektorların, proqrama seçilən və regionlarımızı təmsil edən 40 iştirakçının, bölgələrimizdəki orta məktəb müəllimləri və direktorlarının iştirakı ilə keçirilən tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov və ADA Universitetinin ABŞ-dakı Mərkəzinin prezidenti Qalib Məmməd çıxış ediblər.

Mərasim çərçivəsində ADA Universitetinin fondu və tərəfdaşları arasında Qazax Müəllimlər Seminariyasının bərpa və yenidənqurma işlərini birgə həyata keçirmək məqsədilə Niyyət sazişi imzalanıb.

Sənədi Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin sədri Məhəmməd Abdullayev, “NEQSOL Holding”in baş direktoru Yusif Cabbarov, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və ADA Universiteti fondunun prezidenti Natiq Hacıyev imzalayıblar.

Sazişi imzalamaqla tərəflər seminariyanın təlim-tədris ənənələrini yaşatmaq üçün onun binasının bərpasını öz üzərilərinə götürdüklərini bəyan ediblər.

Sonra “ADA məclisi Qazaxda” mövzusunda panel müzakirə keçirilib. Müzakirədə ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlı, Milli Məclisin deputatı Nizami Cəfərov çıxış ediblər.

Rektor Hafiz Paşayev növbəti ilin sentyabr ayından etibarən Qazax Müəllimlər Seminariyasında dərslərin başlayacağını bildirib.

ADA Universitetinin akademik işlər üzrə prorektoru Vəfa Kazdalın moderatorluğu ilə keçirilən panel müzakirə sual-cavab sessiyası ilə başa çatıb.

Seminariya binasının önündə başlayan tədbir Bakı Dövlət Universitetinin Qazax filialında yekunlaşıb.

Burada “Bir müəllimin manifesti” proqramının iştirakçılarının təlim keçməsi üçün nəzərdə tutulan və yeni təmir edilmiş sinif otaqları ilə tanışlıq olub.

Sözügedən birillik təhsil proqramının əyani formatı Bakı Dövlət Universitetinin Qazax filialında (ilk ilində), ADA Universitetində və ADA Universitetinin Vaşinqton Mərkəzində təşkil olunacaq.

ADA Universiteti bu il “Bir müəllimin manifesti” təşəbbüsü ilə çıxış edərək, milli təhsil sistemimizin başlanğıc nöqtəsi hesab olunan Qazax Müəllimlər Seminariyasının təhsil missiyasını davam etdirəcəyini elan edib. Artıq memarlıq-tikinti işlərinə başlanılıb.

# Cəbrayıl rayonu ərazisində “Türkiyə-Azərbaycan Qardaşlıq Meşəsi” salınacaq

## “Ekoloji məsələlər üzrə” İşçi Qrupun iclası olub

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin “Ekoloji məsələlər üzrə” İşçi Qrupunun növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikası Prezidentinin Şuşa və Ağdam nümayəndəliklərinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Qarabağ Dirçəliş Fondunun və digər müvafiq dövlət qurumlarının məsul nümayəndələri iştirak ediblər.

Ekoloji vəziyyətin qiymətləndirilməsi məqsədilə işğaldan azad edilmiş rayonlarda aparılan kompleks monitorinqlər, o cümlədən transsərhəd çayların çirklənməsinə nəzarət edilməsi və radioekoloji vəziyyətin qiymətləndirilməsi məqsədilə aparılan monitorinqlər haqqında qrup üzvlərinə məlumat verilib.

Ətraf mühitə və təbii sərvətlərə vurulmuş zərərlə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qanunvericiliyə uyğun aparılan qiymətləndirmə işləri yekunlaşdırılaraq araşdırma materialları hüquqi qiymət verilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilib.

İşğaldan azad edilmiş ərazilərdə meşə fondunun bərpası ilə əlaqədar görülən işlər haqqında qrup üzvlərinə məlumat verilib. Türkiyə Respublikasının Meşə və Kənd Təsərrüfatı Nazirliyi ilə əməkdaşlıq çərçivəsində Cəbrayıl rayonu ərazisində salınacaq “Türkiyə-Azərbaycan Qardaşlıq Meşəsi”nin, “Təlim-tədris mərkəzi”nin və “Tinglik sahəsi”nin yaradılması istiqamətində işlərə başlanılıb.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə “Qarabağ Dirçəliş Fondu” arasında işğaldan azad olunmuş ərazilərdə ətraf mühitə vurulmuş ziyanın aradan qaldırılması və bərpa işlərinin görülməsi sahəsində əməkdaşlığa dair imzalanmış Anlaşma Memorandumu barədə fondun nümayəndəsi tərəfindən qrup üzvlərinə məlumat verilib. Əməkdaşlıq memorandumunun məqsədi işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın və təbiət obyektlərinin bərpası üzrə birgə tədbirlərin həyata keçirilməsi ilə regionda dayanıqlı məskunlaşmaya və inkişafa töhfə vermək, əlverişli həyat şəraitinin yaradılmasına dair tədbirləri ölkə daxilində və xaricində təşviq etməkdir. Həmçinin digər dövlət, özəl təşkilatlar, eyni zamanda diaspor və cəmiyyətin müxtəlif nümayəndələri də bu memoranduma qoşularaq ekoloji tarazlığın bərpası və yenidənqurma işlərinin təşkilinə dəstək olmağa dəvət edilir.

Qrup fəaliyyətini İdarələrarası Mərkəzin digər işçi qrupları ilə sıx əlaqə və məlumat mübadiləsi formatında həyata keçirməkdədir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Türkiyənin milli müdafiə naziri müavininin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvanda işgüzar səfərdə olub

**Türkiyə Respublikası milli müdafiə nazirinin müavini Muhsin Derenin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında işgüzar səfərdə olub.**



Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, nümayəndə heyəti Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucaldılan abidəsi önünə gül dəstəsi qoyub və Heydər Əliyev Muzeyini ziyarət edib. Qonaqlar Ulu Öndər Heydər Əliyevin Vətənimiz Azərbaycana həsr etdiyi mənalı ömür yolunu əks etdirən eksponatlarla yaxından tanış olublar.

Türkiyə Milli Müdafiə Nazirliyinin nümayəndə heyəti Mustafa Kamal Atatürkün Naxçıvan şəhərindəki büstünü ziyarət edərək önünə gül dəstəsi qoyub. Qonaqlar Naxçıvan şəhərindəki Türk şəhidləri abidəsini, Şəhidlər xiyabanını və Ana fəryadı xatirə heykəlini ziyarət ediblər.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Naxçıvan Muxtar Respublikasında işgüzar səfərdə olan Türkiyə Respublikası milli müdafiə nazirinin müavini Muhsin Derenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Azərbaycan ilə Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən, keçirilən birgə təlimlərin və hazırda uğurla davam edən “Sarsılmaz qardaşlıq-2021” birgə döyüş atışlı taktiki təliminin hər iki qardaş ölkənin hərbi qulluqçularına qazandırdığı təcrübənin əhəmiyyətindən danışılıb. Böyük öndərlərimiz Heydər Əliyevin “Bir millət, iki dövlət” və Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” şüarının keçirilən təlimlərdə və ixtisas hazırlığı kurslarında birliyimizin və bərabərliyimizin ifadəsinə çevrildiyi diqqətə çatdırılıb.

Görüşdən sonra Əlahiddə Ümumqoşun Ordunun hərbi zavodu ilə tanışlıq zamanı nümayəndə heyətinə burada görülən işlər barədə ətraflı məlumat verilib. İşgüzar səfər çərçivəsində Naxçıvan şəhərində salınan Türkiyə-Naxçıvan Dostluq Parkında ağacəkmə aksiyası keçirilib və Duzdağ Fizioterapiya Mərkəzi ziyarət olunub.

Türkiyə Respublikası milli müdafiə nazirinin müavini Muhsin Derenin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına işgüzar səfəri oktyabrın 1-də başa çatıb.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ





# Zəngəzur dəhlizi Azərbaycanın yeni güc mərkəzi olacaq

## Prezident İlham Əliyev bu təşəbbüsü də reallığa çevirəcək

*Əvvəli 1-ci səh.*

Belə olan təqdirdə yeni əməkdaşlıq platforması hesab edilən “3+3” formatının reallaşması mümkündür. Bu formatın reallaşması, ilk növbədə, Ermənistanın düşdüyü acınacaqlı durumdan qurtuluşu ola bilər.

Son iki həftə ərzində İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasındakı çıxışında, Türkiyənin “Anadolu” agentliyi, Fransanın “France-24” telekanalı və Rusiyanın nüfuzlu “Nasionalnaya oborona” jurnalına verdiyi müsahibələrində bir daha bu mövzuya toxunaraq təkliflərini səsləndirib və Ermənistana yenə də çıxış yolu göstərib.

Noyabrın 9-dan 10-na keçən gecə imzalanmış üçtərəfli Bəyanatda göstərilir ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantı olmalıdır. Lakin bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, bu bağlantı təmin edilməyib. Prezident İlham Əliyev isə deyir ki, bu bağlantını təmin etmək üçün o qədər də böyük zamana ehtiyac yoxdur. Orada quru yollarla məsafə cəmi 40 kilometrdir. Azərbaycan müharibədən sonra keçən bir il ərzində min kilometrdən çox yol çəkib. Yəni 40 kilometr yolun açılması böyük problem deyil. Ancaq buna baxmayaraq, aparılan müzakirələr nəticəsiz qalıb. Yəni Ermənistan 10 noyabr Bəyanatını, onun şərtlərini kobudcasına pozur: “Biz hələlik səbirli, təmkinli davranırıq. Amma bizim səbrimizin də həddi var və İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir. Ona görə Ermənistan rəhbərliyinə şans veririk ki, noyabrın 10-da imzalanmış Bəyanatın bütün müddəalarını yerinə yetirsin və özünü məsuliyyətlə aparsın”.

Dövlət başçısı qeyd edib ki, bu gün Azərbaycan Zəngəzur dəhlizinin yaradılması ilə bağlı genişmiqyaslı işlərə başlayıb. Zəngilana həm dəmir yolu, həm də avtomobil yolu çəkilir, hava limanları tikilir. Azərbaycan öz ərazisində bütün işləri iki il ərzində görəcək. Çünki burada işin həcmi çox böyükdür. Ermənistan ərazisində dəmir yolunun və avtomobil yolunun uzunluğu 40 kilometrdir. Bu, bir ilə, il yarıma çəkilə bilər. Azərbaycan isə bunu gözləyir.

### Zəngəzur dəhlizi bütün bölgə üçün əhəmiyyətli fürsət olacaq

“Zəngəzur dəhlizi bütün bölgə üçün əhəmiyyətli fürsət olacaq. Burada inşa olunacaq avtomobil və dəmir yolu xətləri bütün bölgə ölkələri üçün ticari-iqtisadi imkanlar yaradacaq. Azərbaycan bu dəhlizin reallaşması üçün genişmiqyaslı işlər görür. Təbii ki, Ermənistan tərəfi də öhdəliklərini yerinə yetirməlidir”.

Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Soçi səfərindən qayıdarkən media nümayəndələrinə açıqlamasında bildirib.

Soçi səfəri zamanı Rusiya Prezidenti Vladimir Putinlə müxtəlif mövzuların müzakirə olunduğunu deyən Türkiyə Prezidenti qeyd edib ki, görüşün əsas mövzusu regional məsələlər olub: “Eyni zamanda Azərbaycan məsələsini də müzakirə etdik. Atıla biləcək birgə addımlar haqqında səmimi və səmərəli fikir mübadiləsi apardıq”.

Azərbaycan və Türkiyənin dövlət başçıları dəhlizin müsbətyönümlü imkanlarını vurğulayaraq qeyd edirlər ki, əgər bu, reallaşarsa, ilk növbədə, regionun gələcək inkişafına mühüm təsir göstərər və davamlı sülh təmin olunar.

Amerikalı politoloq Endryu Korıbko da hesab edir ki, Naxçıvan dəhlizi münaqişənin son həllinə görə misilsiz bir inkişaf və inteqrasiya imkanları təmin edərək, bölgənin coğrafi-iqtisadi potensialında inqilab edəcək. Buna görə, Ermənistanın atəşkəsə hörmət etməsini və məsələnin hərtərəfli həll olunmasını təmin etmək üçün birlikdə çalışmaq hər bir regional tərəfin maraqlarına cavab verir: “Hər iki tərəf üçün qazanclı ola biləcək bu ssenarini pozan yeganə əngəl İrəvandakı ultra-milliyyətçilərdir və bütün regional tərəfdaşlar, xüsusən də Moskva onlara deməlidir ki, gələcək problemləri qızışdırmaq tamamilə qəbuledilməzdir”.

Prezident İlham Əliyev vurğulayır ki, Zəngəzur dəhlizi Rusiya, Azərbaycan, Türkiyə, İran, Ermənistan və Gürcüstanın maraqlarına cavab verir. Bu dəhlizin yaradılması, işə düşməsi ilə Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər.

Ümumiyyətlə, postmüharibə dövrü müharibə dövrü qədər çətin olmasa da, qeyri-müəyyən bir dövr sayılır. Çünki əvvəlcədən bu dövrdə proseslərin necə inkişaf edəcəyini müəyyənləşdirmək çətindir. Amma bütün zamanlarda verdiyi qərarlarla, həyata keçirdiyi islahatlarla Azərbaycanın qurtuluşunu təmin edən İlham Əliyev bu dövr üçün də hədəflər müəyyənləşdirmişdi. İndi Azərbaycan öz iqtisadi qüdrətindən yararlanmaqla postmüharibə dövrünün reallıqları əsasında inkişafını davam edir. Yəni İlham Əliyevin müharibədən sonra gələcək addımlarla bağlı müəyyənləşdirdiyi “yol xəritəsi” ilə Azərbaycan Cənubi Qafqazdakı mövqeyini getdikcə daha da gücləndirir. Zəngəzur dəhlizinin açılması isə ölkəmizin iqtisadi qüdrətini daha da yüksəldəcək.

Əgər Ermənistan tezliklə 10 noyabr Bəyanatının müddəalarına əməl etməsə, “dəmir yumruq” yenidən işə düşə bilər. Bu isə İkinci Qarabağ müharibəsində aldığı ağır məğlubiyyətdən hələ özünə gələ bilməyən Ermənistanı daha acınacaqlı duruma salar.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# «Biz hərb istəmirik, hərbə hazırıq»

## Azərbaycan nə qədər sülh və tərəqqi ölkəsi olsa da, “dəmir yumruğ”u yerindədir

*Əvvəli 1-ci səh.*

Onların bütün bu cəhdlərini Azərbaycan Prezidenti bir çıxışı və ya müsahibəsi ilə darmadağın edir. Biz bunu həm Vətən savaşı günlərində, həm də birillik postmüharibə dövründə çox görmüşük və görməkdə də davam edirik. Bu baxımdan Prezident İlham Əliyev sentybarın 23-də BMT Baş Assambleyasının ümumi müzakirələr zamanı 76-cı sessiyasındakı videoformatdakı çıxışı da istisna olmadı. Dövlət başçısı 30 illik işğal müddətində ermənilərin dinc əhaliyə qarşı törətdikləri vəhşilikləri və həyata keçirdikləri vandalizmi beynəlxalq tribunadan bütün dünyaya bir daha bəyan etdi. Bildirdi ki, Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Ermənistan bu ərazilərdə əsrlərboyu yaşayan Azərbaycan xalqının izini silməyə çalışıb. Ağdam o dərəcədə dağıntıya məruz qalıb ki, onu “Qafqazın Hirosiması” adlandırırlar. Füzuli şəhərinin işğaldan azad olunmasından sonra ordumuz orada bir dənə də salamat bina tapa bilmirdi ki, onun üzərində bayrağımızı dalğalandırsın.

Prezident çıxışını davam edərək söyləmişdir ki, Ermənistan savaş zamanı “Skad” və “İsgəndər-M” tipli ballistik raketlərdən, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli sursatlardan istifadə etmişdir. Ermənistanın bu hərbi cinayətləri nəticəsində 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilmiş, 450 nəfərdən çox insan yaralanmışdır. Azərbaycan ərazisində 12 min mülki infrasruktur obyekti, o cümlədən fərdi evlər dağıdılmış və ya onlara ciddi ziyan dəymişdir.

Prezident İlham Əliyev sentyabrın 27-də Anım günündə xalqa müraciətində isə demişdir ki, 44 günlük Vətən müharibəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi: “Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanda “Dağlıq Qarabağ” adlı inzibati ərazi mövcud deyil və əgər kimsə “Dağlıq Qarabağ” adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində “Dağlıq Qarabağ” adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm - Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır”.

Dövlət başçısı sözünü davam edərək bildirmişdir ki, erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. “Mən bunu demişəm, bu gün Anım günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan “dəmir yumruq” yerindədir, bunu heç kim unutmasın!”

Bütün bunlar öz yerində. Amma Azərbaycan Ordu, hərbi güc sarıdan nə qədər güclü olsa da, sülhə, inkişafa və əməkdaşlığa üstünlük verən ölkədir. Belə olmasaydı, həm 30 il müharibə şəraitində yaşadığımız, həm də birillik postmüharibə dövrlərində iqtisadi gücümüzü və əhalinin sosial güvənliyini artıra bilməzdik. Əldə etdiyimiz bu uğurlar beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Dövlət başçısının BMT Baş Assambleyasındakı çıxışında vurğulandığı kimi, Azərbaycan dünyada 2030-cu il Gündəliyin icrası ilə bağlı 3-cü Könüllü Milli Hesabatını təqdim edən 12 ölkədən biri, öz regionunda isə ilk dövlətdir. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin nailiyyət indeksi üzrə mümkün 100 xaldan 72,4 xal toplayan ölkəmiz regionda ən yaxşı nəticə göstərərək cari il üzrə Dayanıqlı İnkişaf Hesabatında 165 dövlət arasında 55-ci yerdə qərarlaşıb. Həmin hesabatda ölkəmizdə yoxsulluğun azaldılması, səhiyyə, qidalanma, qadınların əmək bazarında iştirakı, təmiz su və sanitariya, enerjiyə əlçatanlıq, internet istifadəsi, nəsli kəsilmək təhlükəsi olan canlıların mühafizəsi, əhalinin rifahının yaxşılaşdırılması, şəhər və yaşayış məntəqələrinin dayanıqlı inkişafı sahəsində əldə etdiyi inkişaf da vurğulanıb.

Azərbaycan dünyanın strateji nöqtəsində yerləşən ölkədir. Hələ qədim zamanlarda Şərqlə Qərbi birləşdirən tarixi İpək yolu Azərbaycandan keçib. Azərbaycan müstəqilliyinə yenidən qovuşduqdan sonra bu marşrutun bərpasına təşəbbüs göstərən və əməli addımlar atan birinci ölkədir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsi bu istiqamətdə atılan ilk əməli iş olub. Bu marşrut dünyadakı digər marşrutlardan bir çox üstünlüklərə malikdir. Belə ki, həmin dəhliz vasitəsilə yüklərin daşınması vaxt, qiymət və təhlükəsizlik baxımından Şərqlə Qərb arasında ticarətin aparılmasında da ən etibarlı yoldur.

Təsadüfi deyil ki, bu gün Azərbaycan öz coğrafi mövqeyindən faydalanaraq dünyanın ən mühüm nəqliyyat qovşağına çevrilib. Bu isə dünyada ölkəmizin siyasi nüfuzunun artmasına yeni imkanlar yaradıb. Prezident İlham Əliyev sözügedən çıxışında bu marşrutun dünya üçün əhəmiyyətini vurğulayaraq bildirmişdir: “Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional əlaqəndirmə layihələrinin icrasında fəal iştirak edir və bununla da Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Biz Bakı Beynəlxalq Ticarət Limanını istifadəyə vermişik ki, onun gücaşırma qabiliyyəti 15 milyon tona bərabərdir və ehtiyacdan asılı olaraq bu həcm 25 milyon tona qədər artırıla bilər”. Dövlət başçısı həmçinin vurğulamışdır ki, Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə birləşdirəcək Zəngəzur dəhlizi də regionumuz üçün yeni imkanlar yaradacaqdır.

Azərbaycan Prezidenti çıxışında işğaldan azad edilən ərazilərdə görüləcək işlər barədə də dünya ictimaiyyətinə məlumat vermişdir: “Münaqişə artıq keçmişdə qaldığından azad olunmuş ərazilərdə irimiqyaslı tikinti işləri həyata keçirilməkdədir. Azərbaycan müasir şəhərsalma üsulları, “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarını tətbiq edərək sıfırdan yeni şəhərlər və kəndlər inşa edir. Azərbaycan bütün bu işləri öz maddi imkanları hesabına görür və təkcə bu il bu məqsədlə 1,3 milyard ABŞ dolları məbləğində vəsait ayırıb”.

Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 76-cı sessiyasındakı çıxışı postmüharibə dövründə Azərbaycanın haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırmaq baxımından çox əhəmiyyətlidir. Bu tarixi imkandan məharətlə istifadə edən Prezident dövlətimizin mövqeyini bir daha dünyaya çatdırmaqla bərabər, Ermənistanın revanşist çağırışlar etməsini və yalan təbliğatla dünya ictimaiyyətini çaşdırmaq cəhdlərini də ifşa etmişdir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# ZƏFƏR gündəliyi

## 2 oktyabr 2020-ci il

Cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatları davam edir.

Murov dağı istiqamətində əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

Saat 00:00-dan 07:00-dək düşmənin 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edilib.

❖❖❖

Ağdərə istiqamətində qoşunlarımız Madagiz (Suqovuşan) ətrafındakı hakim yüksəklikləri azad edib və bu məntəqəni nəzarətdə saxlayır.

❖❖❖

Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edir və irəliləməyə nail olur.

❖❖❖

Əldə edilən məlumata əsasən, Ermənistandan işğal olunmuş ərazilərimizə gətirilən erməni könüllüləri döyüşlərin gərginliyi və itkilərinin çox olmasından qorxuya düşərək müxtəlif bəhanələrlə döyüşlərdən imtina edirlər.

❖❖❖



Fransa Prezidenti Emmanuel Makron növbəti dəfə Prezident İlham Əliyevə telefonla zəng edir və döyüşlərin davam etməsindən narahatlıq hissi ifadə edərək atəşkəsin bərpa edilməsini, tezliklə danışıqların aparılmasını istəyir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan isə deyir ki, sentyabrın 27-dən bugünədək Ermənistan silahlı qüvvələri tərəfindən ölkəmizin yaşayış məntəqələrinin ardıcıl ağır artilleriya atəşinə tutulması nəticəsində 19 mülki şəxsimiz həlak olub, 60-dan çox adam yaralanıb, yüzlərlə ev dağıdılıb. Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatları həyata keçirərək işğal olunmuş ərazilərimizin bir hissəsini azad edib.

Ermənistanın danışıqlar prosesinin pozulması istiqamətində addımlar ataraq bu prosesə böyük zərbə vurduğunu deyən İlham Əliyev qeyd edib ki, danışıqların pozulmasına, eləcə də silahlı qarşıdurmanın yaranmasına görə məsuliyyət tam şəkildə Ermənistan rəhbərliyinin üzərinə düşür.

❖❖❖

Düşmən Ermənistan ərazisindən Şəmkirin Sabirkənd yaşayış məntəqəsini raket, işğal olunmuş ərazilərimizdən isə Tərtər şəhərini, rayonun Şıxarx qəsəbəsini, Ağdamın Xındırıstan, Əlibəyli, Əhmədağalı, Səfərli kəndlərini, Quzanlı yaşayış məntəqəsini, Tovuzun Ağdam kəndini, Bərdənin Soğanverdilər, Əmirli kəndlərini artilleriya atəşinə tutur.

Bəlli olur ki, Ermənistan ərazisindən Şəmkirin Sabirkənd yaşayış məntəqəsinə atılan 10-a yaxın raketlər “Toçka-U” taktiki raket kompleksindən buraxılıb.

❖❖❖

Düşmənin səhra idarəetmə məntəqəsi, üzərindəki Ermənistan bayrağı və qondarma rejimin asılan əski parçasının göyə sovurulması, eləcə də tanklarının, canlı qüvvə və döyüş texnikasının məhv edilməsinin videogörüntüləri yayılır.



Prezident İlham Əliyev “Əl-Cəzirə” televiziya kanalına müsahibə verir. Ali Baş Komandan müharibənin hansı şərtlər əsasında dayandırıla biləcəyini açıqlayır:

“Onlar bizim ərazilərimizi tərk etməlidir və yalnız ondan sonra müharibə dayanacaq, münaqişəyə son qoyulacaq. Ola bilsin müəyyən müddət keçdikdən sonra Ermənistan və Azərbaycan xalqları sülh şəraitində birlikdə yaşaya biləcəklər. Bu, bizim mövqeyimizdir və o, dəyişməzdir. Bu, tarixi həqiqətə, beynəlxalq hüquqa və həmçinin düşünürəm ki, regionumuzdakı bu günün siyasi və geosiyasi reallıqlarına əsaslanır”.

Prezident şərtlərini bir daha bildirir - Ermənistan rəhbərliyi silahlı birləşmələrinin torpaqlarımızdan çıxarılması ilə bağlı təqvim cədvəlini təqdim etməli və üzərlərinə vasitəçilər tərəfindən təsdiq olunmuş ciddi öhdəliklər götürməlidir. Bu, çox ədalətli mövqedir. Bu, müharibəyə deyil, sülhə istiqamətlənmiş mövqedir.

Ermənistanın bu şərtlərə əməl etməyəcəyi təqdirdə savaş dayanmayacaq. Azərbaycanın daha 30 il gözləməyə vaxtı yoxdur. Münaqişə indi həll olunmalıdır.

❖❖❖

Düşmənin yüksək dağ zirvəsində yaratdığı dayaq məntəqəsinə silah-sursat çatdıran təminat vasitələri və döyüş texnikaları məhv edilir.



Gün ərzində Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyib yeni dayaq məntəqələrini azad etməklə tarixi ərazini düşmən qüvvələrdən təmizləyir. Döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi və digər döyüş texnikası məhv edilir. Sentyabrın 27-dən oktyabrın 2-si saat 20:00-dək düşmənin ümumi itkiləri aşağıdakı kimidir:

* 230-dək tank və digər zirehli texnika;
* 250 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
* 38 ədəd hava hücumundan müdafiə vasitələri;
* 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
* 7 silah-sursat anbarı;
* 130-dan artıq avtomobil texnikası;
* 1 ədəd “S-300” zenit-raket kompleksi.



# İlham Əliyev bizi Kəlbəcərə qalib vətəndaş kimi qaytardı

Əvvəli 1-ci səh.

Amma indi Azərbaycana layiqincə rəhbərlik edən, Ulu Öndərin yaratdığı və həmin ordunu təkmilləşdirərək, ona komandanlıq edən böyük liderin sayəsində biz öz torpaqlarımıza qalib vətəndaş kimi geri qayıdırıq...

Düşünürəm ki, bu günləri görəcəyimizə inanaraq ümidlə gözləməyə, bu çətinliklərə, məhrumiyyətlərə sinə gərməyə dəyərdi. Çünki indi bir illiyini sevinc, coşqu ilə qeyd etdiyimiz bu böyük Zəfər, sanki bütün yaralarımıza sığal çəkib, məlhəm qoyub, ağrı-acılarımızı unutdurub. Ötən il sentyabrın 27-də başlayan və 44 gün ərzində xalqımıza sevinc, torpaqlarımıza azadlıq bəxş edən, yüz minlərlə vətəndaşımızı məcburi köçkünlükdən xilas edən Vətən müharibəsi müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u ilə düşmənin belini qıraraq başa çatdı və 30 illik Qarabağ düyünü birdəfəlik çözüldü.

## Artıq Kəlbəcərin inkişafı ilə bağlı planlar sürətlə reallaşdırılır

25 noyabrda Ali Baş Komandan "Kəlbəcər bizimdir, Qarabağ Azərbaycandır! söyləyəndə bütün kəlbəcərlilərin fərəhdən ürəyi dağa döndü. Çox çətin relyefə malik Kəlbəcərin bir güllə belə atılmadan, bir itki belə verilmədən xilas edilməsi, sözün əsl mənasında, Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharətinin daha bir nümayişi oldu...

Doğma rayonumun işğaldan azad olduğu gün əvvəldən də arzu etdiyim kimi, ilk öncə Ulu Öndər Heydər Əliyevin məzarını ziyarətə getdim, xalqımızı bu xoşbəxtliyə çatdıran günlərin uğurlu bünövrəsini qoyduğu üçün bir daha uca ruhu qarşısında baş əydim.

İndi biz, bütün keçmiş məcburi köçkünlər səbirsizliklə doğma yurdlarımıza böyük Qayıdışı gözləyirik. Buna görə də, dövlətimizin başçısının qeyd etdiyi kimi, işğaldan azad edilən bütün torpaqlarımızda həyat sürətlə yenidən öz axarına düşür, mənfur düşmən tərəfindən tamamilə viran qoyulan ərazilərimizdə bütün yaşayış məntəqələri və infrastruktur sürətlə yenidən qurulur.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən bütün işğaldan azad edilən torpaqlarda erməni vandalizminə məruz qalan maddi-mədəni irsimizə məxsus nadir incilər - tarixi-dini abidələrimizin bərpası prosesi aparılır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2021-ci il avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfər etdilər. Kəlbəcər rayonunda cənab İlham Əliyev çıxışı zamanı vurğuladı ki, tarixi ədalət bərpa olundu və biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq.

Bütün işğaldan azad edilən bölgələrə səfər zamanı olduğu kimi, Prezident İlham Əliyevlə çiyin-çiyinə Kəlbəcərə gedən zamanı Mehriban xanım Əliyeva düşmən vandalizminin izlərini daşıyan dağıntılarla bağlı özü çəkiliş aparırdı. Hər birimiz bu çəkilişləri böyük diqqət və həyəcanla izləyirdik. Mehriban xanımın erməni faşizminin törətdiyi vəhşiliklərlə bağlı bu çəkiliş kadrları bir daha bütün dünyaya nümayiş etdirirdi ki, erməni vandalları təkcə insanlara yox, məzarlıqlara, təbiətə, daşa, qayaya, ağaca da qənim kəsilib.

Dövlət başçısının qətiyyətlə söylədiyi kimi, ərazilərimizi dağıdan, ekoloji terror törədən düşmən bütün bunlara görə beynəlxalq məhkəmələrdə cavab verəcək.

Dövlət başçısı Kəlbəcərə möhtəşəm səfəri zamanı burada bir çox açılışlarda iştirak etdi, əhəmiyyətli layihələrin təməlini qoydu. Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunacaq 11.6 kilometrlik, Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı müstəsna əhəmiyyətli tunellərin təməlini qoyan İlham Əliyev Lev çayı üzərində tamamilə yenidən qurulan 4,4 MVt gücündə "Kəlbəcər-1" kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış oldu, 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasını işə saldı. "İstisuya öz əvvəlki şöhrətini qaytarmaq qarşıda duran vəzifələrdən biridir", - söyləyən cənab Prezident burada uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolunun çəkilməsi işlərinin gedişi ilə maraqlandı.

Kəlbəcərdə, ümumiyyətlə, işğaldan azad edilən bütün bölgələrimizdə həyata keçirilən genişmiqyaslı işlər onu göstərir ki, Azərbaycan dövlətinin çox güclü iradəsi, əzmi var. Azərbaycan Prezidentinin özünün də vurğuladığı kimi, məhz bu iradə sayəsindədir ki, cəmi 8-9 ay ərzində ərazilərimizin quruculuq və bərpa işləri üçün siyasi qərarlar verilib, bütün güclər, texniki imkanlar səfərbər olunub, maliyyə vəsaiti təmin edilib, o cümlədən inşaat sahəsində kadr potensialı formalaşdıran Azərbaycanda hərtərəfli işlər gedir.

## Bu yol doğma Kəlbəcərə aparır...

Kəlbəcər işğaldan azad olunduqdan sonra çox istəyirdim ki, doğma torpağımıza gedim, kəndimizə baş çəkim, ata yurdumu görüm...

Tale elə gətirdi ki, bu xoşbəxtliyə bu ilin 11 sentyabrında çatdım, doğma Kəlbəcərimə səfər etdim. Onu da deyim ki, dostum, şəhid polkovnik-leytenant, Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin atası Vaqif müəllim mənə müraciət edərək oğlunun doğum günü və şəhidlərin Anım günü ərəfəsində Kəlbəcərə səfər edərək, oğlu Anar Əliyevin xatirə lövhəsini quraşdırmaq istəyini bildirmişdi. Vaqif müəllim və Anarın döyüşçü dostu Eldəniz Rüstəmov dedi ki, Kəlbəcərin azadlığında iştirak etmək ən böyük arzusu idi Anarın. O çox istəyirdi ki, Kəlbəcərə də qələbə bayrağını özü sancsın, amma şəhadəti ilə bu arzusu yarımçıq qaldı...

USTA dərəcəli hərbi qulluqçu, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Bölməsinin Komandiri, İkinci Qarabağ müharibəsinin şəhidi Anar Əliyev 28 avqust 1980-ci ildə Kəlbəcərin Boyaqlı kəndində anadan olub. 1995-1997-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 1997-2001-ci illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində təhsil alıb. 2001-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edib. 2018-ci ildə Günnüt zəfərində xüsusi fərqlənən Anar Əliyev Vətən müharibəsində Zəngilanın, Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla vuruşub. 21 oktyabr tarixində Şuşanın başlanğıcında, Xocavəndin Tuğ kəndində gedən döyüşlərdə şəhid olub. Anar Əliyevin rəhbərliyi altında baş verən bu döyüş Şuşaya girişi xeyli asanlaşdırıb. Qəhrəman şəhidimiz ölümündən sonra Prezidentin sərəncamına əsasən, "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Həmçinin "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edim ki, hələ bir müddət əvvəl, Kəlbəcər rayonunun işğalının 20-ci ildönümü ilə əlaqədar keçirilən tədbirdə Anar Əliyevin iştirakı və çıxışı barədə təşəbbüs qaldırmışdım və Nazirlər Kabinetindən Müdafiə Nazirliyinə məktub ünvanlamışdıq. O zaman Anar Əliyev tədbirdə iştirak və çıxış etmiş, vətənpərvərlik hisslərini bölüşmüş, hərbçi qətiyyəti ilə tezliklə bütün Qarabağı, o cümlədən Kəlbəcəri azadlığa qovuşduracaqlarını söyləmişdi...

Beləliklə, 2021-ci ilin sentyabrında Vaqif müəllimim arzusunu gerçəkləşdirmək üçün məzuniyyət götürüb müvafiq qaydalara uyğun olaraq 11 sentyabrda Kəlbəcərə səfər etməyi və 12-si geri qayıtmağı planlaşdırdıq.

Amma Kəlbəcərə getməzdən əvvəl əslən Kəlbəcərdən olan, Murov dağının ətəyində yerləşən Göygöl rayonunun Bənövşəli və Çaykənd kəndlərində yaşamış Vətən müharibəsinin şəhidləri İsmayıl Mahir oğlu Məhəmmədlinin, Samir Elxan oğlu Bayramovun, Elbrus Nadir oğlu Hüseynovun və Mirzə Xəlifə oğlu Hüseynovun ailələri ilə görüşdük. Bunu etmədən təbii ki, Kəlbəcərə səfər edə bilməzdik...

O qədər həyəcanlı idim ki, səfər öncəsi son iki gecəni yata bilmədim və biz sübh ala-torandan Kəlbəcərə doğru yola düşdük. Yolboyu ətrafı seyr edir, səbirsizliklə doğma yurd-yuvamı görməyə tələsirdim. Toğanalı-Kəlbəcər yolundan Murova qalxdıqca, əvvəlki köhnə, uçuq-sökük yollardan heç bir əsər-əlamət qalmadığını gördüm. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin burada həyata keçirdiyi sürətli tikinti işləri sayəsində Turşsuya qədər yol başdan-başa asfaltlanmış, digər ərazilər isə tamamilə genişləndirilmiş və maşınların gediş-gəlişi üçün yaxşı şərait yaradılmışdı. Qarşıma çıxan daha bir möhtəşəm yenilik isə Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunan 11.6 kilometrlik tuneldə işlərin sürətli gedişatı oldu. İşlərin bu cür plan üzrə və sürətli reallaşdırılması onu göstərir ki, bu tunel çox qısa zamanda istifadəyə veriləcək və kəlbəcərlilər Ağdərə yolu açılanadək, qaraqışa baxmadan, ilin bütün fəsillərində rahatlıqla buradan istifadə edəcəklər.

Murovun Göygöl üzündə DİN-in Kəlbəcər Rayon Polis Şöbəsinin ilk postunda zabit və hərbçilərlə görüşdükdən sonra Murovun zirvəsində, Ömər aşırımında dayandıq. Hava açıq, dumansız olduğu üçün buradan həm Göygöl, həm də Kəlbəcərin hər tərəfi əliçi kimi aydın görünürdü. Bu uca Ömər aşırımında Vaqif müəllim və Eldənizlə birlikdə şəhidin fotosu ilə şəkil çəkdirdik...

Bir az aşağı enərək yolun kənarındakı "Qiblə" bulağında dayandıq, buradan, Murovun sinəsi ilə qıvrıla-qıvrıla Kəlbəcərə enən yollara baxdıq.

1993-cü ilin o məşum 2 aprel günündə sovet qoşunlarının, erməni hərbi birləşmələrinin və PKK beynəlxalq terrorçu təşkilatlarının köməyi ilə işğal olunan Kəlbəcərdən zorla çıxıb canını qurtaran soydaşlarımız piyada başıaçıq, ayaqyalın, çovğunlu-qarlı, şaxtalı bir havada, bir çoxları isə yük və minik maşınlarında Murovun bu dar cığırlarından aşaraq müxtəlif bölgələrdə müvəqqəti məskunlaşmaq məqsədilə Göygölə pənah gətirmişdi. Həmin gün neçə-neçə kəlbəcərli o şaxtada, qarda donmuş, canını Murovun həmin dar yollarında tapşırmışdı.

İllər sonra bu yolla Kəlbəcərə qayıdanda, sanki yenidən o dəhşətli günləri yaşadım, Kəlbəcərin 1993-cü ilə qədər 5 il ərzində mühasirədə qaldığı o ağır günlər, kəlbəcərlilərin min bir əzab-əziyyəti, Kəlbəcərdən və respublikanın digər bölgələrindən olan şəhidlər, qazilər, hərbçilər gözlərimin önündən keçdi...

Çox ağır, dözülməz təəssüratlar idi...

Möhtərəm Prezidentin də söylədiyi kimi, 1993-cü il aprel ayının əvvəlində Kəlbəcərin işğal altına düşməsinin günahkarı məhz AXC-Müsavat iqtidarı idi. Onların xəyanətkar, satqın, antimilli hakimiyyəti Kəlbəcərin işğalını şərtləndirdi və bu xəyanətkar hakimiyyətin qurbanı olan Kəlbəcərin taleyi və kəlbəcərlilərin uzun illər yaşadıqları məşəqqətli həyatı yaddaşımızda ömürböyu silinməyən izlər buraxdı...

## Ermənistan işğal etdiyi ərazilərimizdə nə var idisə, hamısını Yer üzündən silməyi planlaşdırmışdı

Kəlbəcərin Murov istiqamətindən ilk kəndləri olan Zallar və Yanşaq kəndlərinə yaxınlaşdıq. Hələ zirvədən baxdıqda hər iki kənddə sosial obyektlərin, yaşayış evlərinin erməni vandalları tərəfindən vəhşicəsinə dağıdıldığının və onların qalıqlarının qaldığının şahidi olduq.

Bizimlə səfərdə olan Yanşaq kəndinin ziyalısı Rasim Verdiyevin də dağıdılmış ata yurduna baş çəkdik.

Onu da deyim ki, bu kəndlərdə gördüyüm acınacaqlı vəziyyətlə səfər etdiyimiz bütün bölgələrdə rastlaşdım...

Bütün bunlar məni belə bir qənaətə gətirdi ki, Qarabağı işğal etmək planını qarşısına qoyan Ermənistan, təkcə o əraziləri işğal etməyi yox, həm də yaratdıqları xüsusi vəhşi, dağıdıcı qruplar vasitəsilə orada nə varsa, hamısını Yer üzündən silməyi planlaşdırmışdı və bunu eyni ssenari üzrə bütün işğal altında saxladıqları ərazilərimizdə həyata keçirmişdi...

**Zəfərin izi ilə**




















Yanşaqda hərbçilərimizlə görüşdük. Qələbənin məğrurluğu, Zəfərin sevinci üzlərindən, gözlərindən yağan bu qəhrəman oğullarla görüşmək ürəklərimizi fərəhdən dağa döndərdi. Ümumiyyətlə, səfər müddətində rastlaşıb görüşdüyümüz bütün polis əməkdaşları və hərbçilərin necə qürurla vətəni qorumaları, yüksək nizam-intizamları məni valeh etməyə bilməzdi...

Ermənilər hər nə qədər vandal əməlləri ilə Kəlbəcərə zərər verməyə çalışsalar da, heç cür mənfur istəklərinə nail ola bilməmişdilər. Elə yenə də Kəlbəcərin hər dağı, bulağı, meşəsi, daşı, çayları füsunkar gözəlliyi ilə yerində idi. Qamışlı kəndindən Kəlbəcərə hərəkət edəndə təbiət möcüzəsi olan və görənlərini heyran qoyan "Qaya baş-başa" gələn yerdə dayandıq...

Burada əslən Laçından olan dostum, tələbə yoldaşım Rauf Məmmədovla görüşdük. Deyim ki, biz ötən 28 ildən çox müddətdə və xüsusilə 44 günlük müharibə ərəfəsində daim məlumat və fikir mübadiləsi aparırdıq. Həmişə də Ulu Öndərin dediyi kimi, mütləq torpaqlarımıza, hətta Zəngəzura və Göyçəyə də qayıdacağıq kimi nikbin əhvali-ruhiyyə ilə yaşadığımızı bir daha bölüşdük. Rauf Laçın rayonuna səfərə gedəcəklərini və şəhid qardaşı Elxan Məmmədovun məzarı üzərində onun xatirə lövhəsini quraşdıracaqlarını bildirdi...

## Uçuq-sökük pilləkənlə dağıdılmış tavanı, qapısı, bacası olmayan evimizə daxil oldum...

Doğulub boya-başa çatdığım, hər daşına, cığırına bələd olduğum Nadirxanlı kəndinin ərazisinə daxil olduqda bütün uşaqlıq, gənclik illərim kino lenti kimi gözlərimin önündən keçdi. O səsli-küylü, qonaqlı-qaralı, mərd insanları olan kəndimizdən heç bir əsər-əlamət yox idi. Məhəlləmizə yaxınlaşdıqda isə səbrim çatmadığından maşından düşərək tələsik hündür bir zahmanı sıçrayıb keçdim. Yaxınlıqdakı qonşularımız Möhsüm və Sədi əminin məhəllələrinə baş çəkdim. Bu mənzərəyə baxmaq o qədər ağır idi ki... O bağ-bağatlı həyətlərdən, rahat evlərdən heç bir əsər-əlamət qalmayıb...

Daha sonra öz evimizə tərəf addımladım. Atamın, mənim və ailə üzvlərimin min bir əzab-əziyyətlə tikdiyimiz böyük və hər bir şəraiti olan evimizin, yaxınlıqdakı tövlə və hamam binasının yalnız divarlarının qalıqları qalıb. Bütün meyvə ağaclarımız kəsilib, bağ-bərəmiz dağıdılıb, həyətimiz viran qoyulub...

Uçuq-sökük pilləkənlə dağıdılmış tavanı, qapı-bacası olmayan evin girişinə daxil oldum. Hər künc-bucağına nəzər yetirdim, əvvəlki o xoş günlərimizdən bir nişanə, iz tapmaq üçün ətrafa boylandım, tanış bir səs, doğma bir hənir duymaq üçün sakitcə qulaq verdim, amma...

Qəhər məni boğdu və kürəyimi elə o yarımçıq divarlara söykəyib birtəhər toxtaqlıq tapmağa çalışsam da, göz yaşlarımı saxlaya bilmədim...

Digər qonşularımız Bəxtiyar və Fikrət əminin həyətlərinə də baş çəkdik. Burada da eyni məşum mənzərə hökm sürürdü, sadəcə, fərq ondan ibarət idi ki, ermənilər Bəxtiyar əminin evində son vaxtlara qədər yaşamış, evin üzərinə 10 nömrəsi yazmış, lakin tərk edərkən öz mənfur xüsusiyyətlərinə xas davranaraq bu evi yandırıblar.

Ermənilər vaxtilə məhəlləmizə çəkdiyimiz su xəttinin yerini dəyişdirərək mərkəzləşmiş sistem yaradıblar və digər qonşuların evlərində məskunlaşan ermənilər üçün də su xətti çəkiblər.

Ümumiyyətlə, onlar istər Zallar, Çəpli, istərsə də İstisudan təxminən diametri 1,5 metrdən çox olan su boruları vasitəsilə çay sularının yığılması və Su Elektrik Stansiyalarının yaradılması, eyni zamanda, ermənilərin digər yaşadıqları ərazilərə də su çatdırılması məqsədilə layihələrin həyata keçirildiyinin, Basarkeçərdən Ağdərəyədək müasir avtomobil yolunun və yüksəkgərginlikli elektrik xətlərinin çəkildiyinin də şahidi olduq.

Nadirxanlı kənd qəbiristanlığını da barbarlar darmadağın ediblər...

Kənddə olarkən qərara gəldik ki, Nadirxanlıdan olan altı şəhidimizin, Xalid Əli oğlu Hümbətovun, Natiq Siyavuş oğlu Məlikovun, Qahir İsgəndər oğlu Bəxtiyarovun, Mürvət İzzət oğlu Hacıyevin, Müşviq Dilqəm oğlu Abbasovun, İsmayıl Mahir oğlu Məhəmmədlinin ruhunu əbədiləşdirmək üçün yaxın gələcəkdə burada bir xatirə lövhəsi quraşdıraq.

## Kəlbəcərin girəcəyində şəhidlərimizə abidə ucaldılacaq

Sonra biz Tərtər çayı boyunca Kəlbəcər şəhərinə üz tutduq. Yolboyu ötüb keçdiyimiz yaşayış məntəqələrinin hamısında eyni ürəkdağlayan mənzərənin şahidi olduq. Nə bir salamat yaşayış yeri var, nə də hansısa bir tikili...

Kəlbəcər şəhərinin girəcəyində Böyük Vətən müharibəsi iştirakçılarının xatirəsinə ucaldılmış və ermənilər tərəfindən viran qoyulmuş abidə ilə üzbəüz erməni separatçıları tərəfindən quraşdırılmış abidə kompleksinin yerinə baxış keçirdik. Var olsun igid əsgərlərimiz ki, bu qondarma abidəni layiq olduğu kimi darmadağın ediblər. Biz qərara gəldik ki, gələcəkdə məhz həmin bu yerdə bütün Azərbaycan şəhidlərinin ruhuna bir abidə ucaldılsın. Məsləhətləşdikdən sonra qəhrəman şəhidimiz Anar Əliyevin xatirə lövhəsini həmin yerdə quraşdırdıq. Anarın hərbçi yoldaşları, Xüsusi Təyinatlılar, Kəlbəcər Rayon Polis Şöbəsinin və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları bu işdə bizə yaxından dəstək oldular, anım tədbirində iştirak etdilər.

Zənnimcə, həmin gün şəhid Anar Əliyevin xatirə lövhəsini ucaltmaqla, həm də rəmzi olaraq Birinci və İkinci Qarabağ müharibəsində canından keçən bütün şəhidlərimizi bir daha yad etdik, əziz ruhları qarşısında baş əydik, qazilərimizə və igid hərbçilərimizə dua etdik...

Mən və Vaqif müəllim çıxış edərək Vətən müharibəsində Azərbaycan tarixinin ən şanlı səhifəsini yazan və bizi bu gün bu torpağa qovuşduran, bu xoşbəxt hissləri yaşadan Ali Baş Komandan İlham Əliyevə, rəhbərlik etdiyi şanlı Azərbaycan Ordusunun hər bir döyüşçüsünə bir daha sonsuz təşəkkürlərimizi bildirdik. Bu böyük qələbəni bizə yaşatdığı üçün Azərbaycan xalqı hər zaman Ulu Öndərin ruhuna, cənab Prezident İlham Əliyevə, şəhidlərimizə, qazilərimizə və qəhrəman hərbçilərimizə dünya durduqca borclu olacaq.

## Bura bizim dədə-baba yurdumuzdur

Kəlbəcər şəhərində olarkən, ilk öncə, möhtərəm Prezident İlham Əliyevin rayona səfəri zamanı ucaltdığı Dövlət bayrağını ziyarət etdik. Kəlbəcər Rayon Polis Şöbəsinin, DTX-nin Kəlbəcər rayon şöbəsinin, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin işçi qrupu üçün nəzərdə tutulan ofis və yaşayış məntəqəsinin, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 8 nömrəli Yol İstismar İdarəsinin, çörək zavodunun fəaliyyətə başlamasını görmək çox qürurverici idi. Ümumiyyətlə, rayonun bütün istiqamətləri üzrə yeni çəkilən yollarda ən yüksək səviyyəli texnikaların işlədiyinin şahidi olduq.

Sonra Kəlbəcərin Yellicə kəndinin ziyalısı Əjdər Sarıyevin doğulduğu kəndə yola düşdük. Yolboyu yenə də ən müasir texnikalarla ta Ermənistanla sərhədə qədər geniş yolların çəkildiyini gördük. Doğma kəlbəcərlilər tərəfindən bu əzəmətli dağ zirvəsindəki kənddə hətta nəqliyyat vasitələrinin hərəkət etmək imkanı olmayan yerlərdə belə tikilmiş və ermənilərin viran qoyduğu evlərin mənzərəsini görmək olduqca dözülməz idi...

Bu kənddən ayrılıb yolumuzu Kiçik İstisuya və Böyük İstisuya saldıq. Zirvədən Kəlbəcər şəhəri və ətraf kəndlər çox aydın görünür. Yenə də mənzərə eynidir, dağıdılmış, viran qoyulmuş şəhər və kəndlər...

28 ildən çox müddətdən sonra bu müalicəvi ecazkar sudan elə yerindəcə dadmaq bizim üçün böyük xoşbəxtlik oldu. Böyük İstisudan Laçın rayonunun Minkənd kəndinə və Sarıyerə, Alagöllərə yüksəksəviyyəli yolların çəkilişi isə ikiqat sevincimə səbəb oldu.

Bundan sonra Vəng kəndində yerləşən Xudavəng Monastırına baş çəkməyi qərara aldıq. Yolboyu keçdiyimiz bütün yaşayış məntəqələrində erməni vəhşiliyinin davam etdiyini gördük.

Qamışlıçay-Tunel istiqamətində hərəkət edərkən Kəlbəcər-Laçın avtomobil yolu üzərində möhtərəm Prezident İlham Əliyevin rayona səfəri zamanı təməlini qoyduğu 3.4 kilometrlik uzunluğundakı tunelin yerləşdiyi ərazi də olduqca qürurverici idi.

Xudavəngə yaxınlaşanda burada monastırla 50 metr məsafədə yerləşən Eldar dayı və Bahar xalamgilin dağıdılmış evinə ürəkağrısı ilə baxdım. Uşaqlıq illərimdə bu yerlərdə çox olmuşdum. Hətta uşaqlarla monastırın həyətində "gizlənqaç", voleybol oynadığımız da xatirimdədir... Xudavəng məbədi ərazisində rayonun işğalınadək heç kim bir nəfər də olsa ermənini orada görməmişdi.

Tarixən Kəlbəcər rayonu ərazisində heç bir erməni ailəsi yaşamamış, erməni yaşayış məntəqəsi mövcud olmamışdır. Yalnız Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 13 oktyabr tarixli qərarı ilə Ağdərə rayonu (keçmiş Mardakert) ləğv olunmuş, onun 23 kəndi və onlara məxsus torpaq sahələri Kəlbəcər rayonunun inzibati ərazisinə birləşdirilmişdir.

...Sonra biz Vəngdən ayrılıb tuneldən keçərək Zülfüqarlıdakı İstisuya gəldik. Əsrik kənd xəstəxanasının yaxınlığındakı məşhur "Turşsu" bulağından su içdik. Burada olarkən öz arı təsərrüfatı ilə yaylağa köçən və Prezident İlham Əliyevin Kəlbəcərə səfəri zamanı möhtərəm dövlət başçısı ilə görüşmək xoşbəxtliyinə nail olan Sabir Mustafayevlə görüşdük.

Söyüdlü-Zod qızıl yatağının yerləşdiyi əraziyə də baş çəkdik. Söyüdlü yaylağında heyvandarlıq təsərrüfatı ilə məşğul olan İlham və Mehman Həsənov qardaşları ilə görüşüb söhbət etdik. Onların hazırladığı dadlı xörək və ürək açıqlığı ilə açdıqları süfrə məni əvvəlki illərə qaytardı. Arıçılarımızla, heyvandarlarımızla yenidən öz yurdumuz Kəlbəcərdə qarşılaşmağın fəxarət hissini yaşadım.

Bütün bunlar onu göstərir ki, dövlət başçımız Kəlbəcərdə böyükmiqyaslı işlər reallaşdırmaqla yanaşı, burada elə məsələləri və adətləri də bərpa edir ki, bütün bunlar kəlbəcərlilərin ürəyinə yağ kimi yayılır. Məlum olduğu kimi, kəlbəcərlilər arı təsərrüfatları, qoyun sürüləri ilə səfalı Kəlbəcər yaylaqlarına köçürülmüşdülər. Şübhəsiz, o sürülər kənar yerlərdə də otladıla, o arı təsərrüfatları başqa bölgələrimizdə də qurula bilərdi, amma İlham Əliyev həm də bütün kəlbəcərlilərə o mesajı verdi ki, doğma Kəlbəcəri azad etmişəm və ən kiçik təsərrüfat işlərindən tutmuş, ən böyük infrastruktura qədər hər bir işi onların ixtiyarına verirəm və bütün bu imkanlardan ürək rahatlığı ilə istifadə etsinlər...

Onu da deyim ki, müharibəyədək Lev, Tərtər, Tutquncay boyunca ermənilərin balıq tutmaları, fantanda, Zülfüqarlı suyunda çimmələri və bu görüntüləri sosial şəbəkələrdə yerləşdirmələri təbii ki, ürəyimizə dağ çəkmişdi. Çox şükür ki, həmin o şərəfsizlərin ayağı bu torpaqlardan kəsildi. İndi o çaylarda balıq tutanlar da, İstisuda çimənlər də Azərbaycanın öz vətəndaşlarıdırlar...

Şükür, bu ziyarətimizə! Ulu Öndər Heydər Əliyevin illər öncə dediyi kimi, öz doğma dağlarımızı, bulaqlarımızı, çaylarımızı da, ata-babalarımızın qəbirlərini də gördük. Sadəcə ürəyimizdə bir hüzn də var idi və hər birimizin qəlbindən keçirdi ki, kaş, Vətən torpağına qayıtmağa ömrü vəfa etməyən bütün məcburi köçkünlər, həmçinin kəlbəcərlilər bu xoşbəxt günləri görə biləydi... Allah vətən həsrəti ilə yaşayıb dünyasını dəyişənlərə rəhmət eləsin.

## Kəlbəcərdə 70 il ərzində sovetin görmədiyi mühüm işləri belə cəmi 8-9 ay ərzində Azərbaycan Prezidenti gerçəkləşdirir

Daha Kəlbəcərin 30 illik zülmət günləri sona çatıb və yeni uğurlu həyata qədəm qoyub. Cənab İlham Əliyevin də vurğuladığı kimi, Kəlbəcər çox çətin relyefli ərazidə yerləşir. Kəlbəcərdə doğulan, illərlə burada yaşayan və məcburi köçkün düşmüş biri kimi deyirəm ki, səfər müddətində şahidi oldum ki, hətta bu rayonda 70 il ərzində sovet dövründə görülməyən mühüm işləri belə, cəmi 8-9 ay ərzində Azərbaycan Prezidenti sürətlə gerçəkləşdirir.

Məsələn, ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından və Kəlbəcər-Laçın avtomobil yolu üzərində tunellərin tikintisinin həyata keçirilməsinin özü möhtəşəm və möcüzəvi layihədir. Bu tunelin çəkilməsi hələ sovet dövründən arzumuz idi, təəssüf ki, ona çatmadıq. Amma bunu indi İlham Əliyev həyata keçirir...

Kəlbəcərin işğala qədərki son illərində ermənilər elektrik enerjimizi kəsmişdi, illərlə qaranlıqda yaşamışdıq. İlham Əliyevin burada gerçəkləşdirdiyi və yaratdığı yüksəksəviyyəli enerji infrastrukturu sayəsində indi Kəlbəcərin işıqları da gur yanır. "Azərenerji" ASC və "Azərişıq" ASC rayona çəkilən yeni elektrik xəttini, Kəlbəcər rayonunun mərkəzində daxili şəbəkə, küçə işıqlandırması və müxtəlif dövlət orqanlarının yerləşdiyi müvafiq tikililərdə elektrik enerji xətlərini bərpa edib. Hazırda da Kəlbəcərin elektrik enerjisi ilə təchizatını dayanıqlı və keyfiyyətli etmək üçün əsaslı işlər görülür.

Kəlbəcərdə doğulmuş insanlar, 5 ildən sonra burada qurulmuş ən müasir infrastrukturlu yaşayış məntəqələrində, özlüyündə cənab Prezidentin siyasətini əks etdirən və dünya miqyasında yeni-yeni tətbiq edilməyə başlayan "ağıllı şəhər", "ağıllı kənd"lərdə öz həyatlarını yüksək səviyyədə davam etdirəcəklər.

Kəlbəcər rayonu həm strateji bölgə olaraq, həm dağları, çayları, meşələri, bulaqları zəngin təbiəti və təbii sərvətləri, flora və faunası, həm də turizm imkanları baxımından Azərbaycanın ən füsunkar bölgələrindən biridir. İnanırıq ki, möhtərəm Prezidentin göstərişləri əsasında yaxın gələcəkdə, Kəlbəcər rayonu ərazisində də, İstisu sanatoriyasının yaxınlığındakı Taxtadüzü, ya da Qaraçanlı-Başlıbel kəndləri arasındakı Ağcaqız-Qoçdaş yaylaqları, Keştək və Zar düzənlikləri, "Ceyran" bulağından Sarıyerə gedən yolda Qaraarxacdakı "Məşədi Tavat" bulağına tərəf olan böyük düz, Bəzirxana yaylağından Ağduzdağa olan istiqamət və s. kimi çoxlu əlverişli yerlərin birində xarici turistlərin də cəlb olunması üçün müvafiq tutumlu təyyarələr üçün beynəlxalq hava limanı tikiləcək. Bunun üçün Kəlbəcərdə kifayət qədər düzənliklər mövcuddur.

Onu da qeyd edim ki, Taxta düzünün yaxınlığında Qobustan qayalıqlarından da böyük olan ərazidə beş mindən çox qayaüstü təsviri olan abidələrlə dolu ərazi mövcuddur.

Bildirim ki, Kəlbəcərdə Beynəlxalq Hava Limanının tikintisi hələ 82 il əvvəl planlaşdırılmışdı. Bununla bağlı, 1939-cu ildə "Kommunist" qəzetinin 14 may tarixli sayında qeyd olunub ki, Azərbaycan Xalq Səhiyyə Komissarlığının Baş Kurort İdarəsi bu il Bakı-İstisu arasında hava yolunu işə salmaq fikrindədir.

İlkin tikinti işləri üçün hazırlıq görülsə də, təəssüf ki, o zaman ermənilərin səyləri nəticəsində bu layihə kağız üzərində qaldı.

Əminik ki, çox yaxın vaxtlarda Kəlbəcərdə erməni barbarları tərəfindən viran qoyulmuş İstisu sanatoriyalarının yerində ən müasir sanatoriya kompleksləri, mineral sudoldurma zavodları inşa olunacaq. Həmçinin ən müasir hotellər, kanat yolları, müasir ictimai-iaşə obyektləri, istehsalat müəssisələri yaradılacaq, böyük Qayıdış nəticəsində öz yurd-yuvasına dönən hər bir ailə üçün yaşayış şəraiti yaradılacaq, onlar müxtəlif sahələr üzrə işlə təmin olunacaqlar. Kənd təsərrüfatı sahəsində bütün istiqamətlər üzrə geniş layihələr həyata keçiriləcək. Zod qızıl yatağı, civə və digər təbii sərvətlər öz istifadəmizdə olacaq.

Bizim üzərimizə düşən isə o olacaq ki, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışında fəal iştirak edək, açıq səma altında təbiət muzeyi olan Kəlbəcəri, onun flora və faunasını, ucsuz-bucaqsız meşələrini, yaylaqlarını, bulaqlarını, çaylarını, göllərini ekoloji təmizliyini göz bəbəyimiz kimi qoruyaq...

*Doğma Kəlbəcərə səfərimiz yekunlaşırdı. Böyük qürur hissi ilə Murov yolu ilə Ömər aşırımına doğru qalxırdıq, o yüksəklikdən uzaqdan sayrışan Kəlbəcərin işıqlarına baxır, tezliklə bu yurdlara əbədi dönəcəyimizin bəxtəvərlik, cənab Prezidentimizə, şəhidlərimizə, qazilərimizə və hərbçilərimizə minnətdarlıq hissi ilə Vətəndən əsən doğma ətri ciyərlərimizə çəkib, düz 28 illik ağrı-acıdan sonra dərindən, ürəkdən rahat bir nəfəs alırdıq...*

*Bir sözlə, cənab İlham Əliyev özünün də dediyi kimi, Kəlbəcəri cənnətə çevirir...*

**Qurban SADIQOV,**
**Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının məsul işçisi**

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycanın Gürcüstan iqtisadiyyatına yatırdığı sərmayənin xeyli hissəsi qazlaşdırmaya yönəldilir




Əvvəli 1-ci səh.

Elə cari ilin sentyabr ayında Kvemo-Kartli regionunda azərbaycanlıların yığcam yaşadıqları İlməzli kəndinə təbii qaz verilməsi bu tədbirlərin davamlı olduğunu göstərir.

Qeyd edək ki, "SOCAR Georgia Gas" tərəfindən çəkilən qazpaylayıcı xəttin əsası bir il əvvəl qoyulub. 13 min 145 metrlik şəbəkə bir sıra yaxın yaşayış məntəqələrini də əhatə edəcək və 227 abonentin təbii qazla təminatı üçün imkan yaradacaq.

"SOCAR Georgia Gas" 13-ü Kvemo-Kartlidə, 2-si Msxeta-Mtianetidə olmaqla, 15 yaşayış məntəqəsində qazpaylayıcı şəbəkənin tikintisini tamamlamağı planlaşdırır. Tikinti işləri başa çatdırıldıqdan sonra daha onlarca abonent qazla təmin olunacaq. Yeri gəlmişkən, azərbaycanlıların yaşadığı 78 yaşayış məntəqəsindən 60-ı artıq qazlaşdırılıb. Plana görə, daha 7 kənddə 1111 abonent üçün ümumi uzunluğu 7,3 kilometr olan qaz kəmərləri çəkilir.

Bu faktların özü də göstərir ki, sərmayələrin böyük hissəsi qazlaşdırılmaya yönəldilir. Qonşu ölkənin qazlaşdırılması sahəsinə 300 milyon dollarından çox investisiya yatırılıb. Xatırladaq ki, Gürcüstanda qazlaşdırmanın səviyyəsi 90 faiz təşkil edir. Bir çox ölkələrin qazlaşdırma sahəsində çətinlikləri olduğunu nəzərə alsaq, bu, çox yüksək göstəricidir.

Vurğulayaq ki, Prezident İlham Əliyevin göstərişi ilə SOCAR Gürcüstanda yaşayan soydaşlarımızın sosial şəraitinin yaxşılaşdırılması məqsədilə də bir sıra layihələr həyata keçirir. Gürcüstan hökuməti də azərbaycanlıların sıx yaşadığı bölgələrin inkişafına diqqət ayırır, həmçinin SOCAR-ın layihələrini dəstəkləyir və reallaşdırılması üçün şərait yaradır.

Keçən ay Qızılhacılı kəndində inşa olunan idman kompleksinin və Laqodexi rayonunun Qabal kəndində tikilən uşaq bağçasının açılışı buna aydın misaldır. Yeni texnologiyalar əsasında tikilmiş idman kompleksinin açılışında bildirilib ki, bu qurğu basketbol, voleybol və futzal kimi idman növləri üzrə beynəlxalq yarışların keçirilməsi üçün uyğundur. Müasir istilik və soyutma sistemləri, yanğın əleyhinə vasitələrlə təmin olunmuş kompleksin tribunaları 150 tamaşaçıya hesablanıb. Binanın ətrafı abadlaşdırılıb, kompleksin yaxınlığındakı futbol stadionu yenidən qurulub, buraya yeni sintetik qazon döşənib, metal çəpərlər, tribunalar, işıqlandırma sistemi təmir edilərək yenilənib, tamaşaçılar üçün müasir oturacaqlar qoyulub.

Laqodexinin 17 min əhalisi olan Qabalı kəndində isə uşaq bağçası tikilib. Binanın layihəsi Gürcüstan ərazisində müəyyənləşdirilmiş tikinti standartlarına və tələblərinə uyğundur. Bağçada müasir tipli oyun meydançası inşa edilib, bütün ərazi boyunca işıqlandırma sistemi qurulub, abadlaşdırma işləri aparılıb.

Hər iki sosial obyekt şirkət Gürcüstan hökumətinə təmənnasız təqdim olunub. Eləcə də SOCAR-ın təqaüdü əsasında minlərlə soydaşımız Gürcüstanın ali məktəblərində dövlət dilində təhsil alıb və bu proqram gürcüdilli azərbaycanlı kadrların yetişdirilməsində böyük rol oynayıb. Hazırda bu proqram çərçivəsində 1200-ə yaxın azərbaycanlı tələbə ali təhsil alır.

Gürcüstandan söz düşmüşkən, cari ilin yanvar-avqust aylarında qonşu ölkəyə ixrac olunan neft-qaz haqqında da bir neçə rəqəmi də çatdıraq. Bu müddətdə Gürcüstan Azərbaycandan 858,1 min kubmetr həcmində təbii qaz idxal edib. Bu barədə Gürcüstanın Milli Statistika İdarəsindən məlumat verilib. Məlumatda həmçinin qeyd olunur ki, Gürcüstan hesabat dövründə Azərbaycandan 148,5 min ton neft və neft yağları alıb.

8 ayda Gürcüstan Azərbaycandan 138,2 min ton dizel yanacağı idxal edib. Bu barədə isə Gürcüstanın Neft Məhsulları İdxalçıları Birliyindən məlumat verilib. Bildirilib ki, yanvar-avqust ayları ərzində Azərbaycan Gürcüstanın dizel yanacağına olan tələbatının 18,6 faizini təmin edib. 8 ay ərzində tədarük edilən benzin və dizel yanacağının həcmi, ümumilikdə, 743,7 min ton olub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Ölkənin müxtəlif rayonlarında aqroparkların yaradılması davam edir

### "Aqroparkların kənd təsərrüfatının inkişafındakı rolu" mövzusunda tədbir keçirilib

**İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin təşkilatçılığı ilə "Aqroparkların kənd təsərrüfatının inkişafındakı rolu" mövzusunda tədbir keçirilib.**

Tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov, kənd təsərrüfatı naziri İnam Kərimov, "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Zaur Mikayılov, həmçinin aidiyyəti dövlət qurumlarının və aqrar sektorda aparıcı şirkətlərin rəhbərləri iştirak ediblər.

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov aqroparkların kənd təsərrüfatında, ümumilikdə ölkə iqtisadiyyatında rolunu qeyd edib, onların fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində həyata keçirilən tədbirləri - aqrar sektora vergi güzəştləri, subsidiya və güzəştli kreditlərin verildiyini, lizinqə verilən texnika və avadanlıqlara görə güzəştlərin tətbiq edildiyini diqqətə çatdırıb. Bildirilib ki, hazırda ölkənin 32 rayonu üzrə 240 min hektar ərazidə ümumi dəyəri 2,1 milyard manat olan 51 aqroparkın yaradılması üzrə işlər davam etdirilir. Artıq 43 aqropark fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə işləri aparılır. Aqroparkların təşkilinə dövlət dəstəyi göstərilir, infrastruktur təminatı yaradılır, güzəştli kreditlər verilir. Belə ki, 23 aqroparkın yaradılmasına indiyədək İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 173 mln. manat güzəştli kredit, Nazirlik tərəfindən 27 aqroparka isə 1 mlrd. manat dəyərində investisiya təşviqi sənədi verilib. İnvestisiya təşviqi sənədi almış 25 aqroparka texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə bir çox təsdiqedici sənədlər verilib və bu təsdiqedici sənədlər üzrə həmin aqroparklar 32,8 mln. manat dəyərində güzəşt əldə ediblər. Bu günədək aqroparklara 1 mlrd. manatdan çox özəl investisiya qoyulub. Nazir qeyd edib ki, aqroparklar məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayır. İndiyədək aqroparklarda ümumi olaraq 5000-dək insan daimi, 4500-dən çox insan isə mövsümü işlə təmin olunub. Fəaliyyətdə olan və təşkil ediləcək aqroparklarda əlavə 4300-dən çox iş yerinin yaradılması nəzərdə tutulur.

Qeyd edilib ki, torpaq sahələrindən səmərəli istifadə, məhsuldarlığın yüksəldilməsi, yeni istehsal və emal sahələrinin yaradılması, müasir suvarma sistemlərinin tətbiqi üçün aqroparklar innovativ və əlverişli mexanizmdir. Bu baxımdan aqroparkların ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində rolu gücləndirilməli, sahibkarlığın inkişafı, kiçik, orta və iri təsərrüfatların qarşılıqlı faydalı əməkdaşlığı üçün əlverişli platformaya çevrilməlidir.




Kənd təsərrüfatı naziri İnam Kərimov əkin torpaqlarından səmərəli istifadə edilməsi və ekoloji təmiz məhsul istehsalının genişləndirilməsində aqroparkların əhəmiyyətini vurğulayıb, aqroparkların fəaliyyətində səmərəliliyin artırılmasının vacibliyini qeyd edib və bu istiqamətdə nəzərdə tutulan tədbirlərdən danışıb.

"Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Zaur Mikayılov istehsal və suvarma sistemlərində mütərəqqi texnologiyaların tətbiqi, suvarma suyu ilə təminatın yaxşılaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər barədə məlumat verib.

İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri vəzifəsini icra edən Elşad Nuriyev ölkədə fəaliyyət göstərən aqroparkların fəaliyyətinə dair təqdimatla çıxış edib.

Sonra aqropark təmsilçiləri ilə müzakirələr aparılıb, sualları cavablandırılıb. Sahibkarlar su çatışmazlığı, aqrar sığorta, torpaqların təyinatının dəyişdirilməsi, yol infrastrukturunun olmaması, mütəxəssis çatışmazlığı, qanunsuz balıq göllərinin fəaliyyəti nəticəsində torpaqların şoranlaşması, su nasoslarının yenilənməsi, yeni yarımstansiyaların tikintisi və s. məsələlərlə bağlı təkliflərini səsləndiriblər.

## Ahıllara qayğıkeşlik və ehtiram Azərbaycanda aparılan sosial siyasətin mühüm istiqamətlərindən biridir

**BMT-nin Baş Məclisi tərəfindən1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qəbul edilən qətnaməyə uyğun olaraq, hər il oktyabrın 1-i dünyada, o cümlədən Azərbaycanda Beynəlxalq Ahıllar günü kimi qeyd olunur.**

"Sosial xidmət haqqında" qanununa əsasən, ölkəmizdə yaşı 70-ə çatmış şəxslər ahıl hesab edilir və hazırda ölkəmizdə yaşı 70-dən yuxarı vətəndaşların sayı 440 minə yaxındır.

Ahıllara qayğı və ehtiram ölkəmizdə aparılan sosial siyasətin mühüm istiqamətlərindən biridir. Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən yaşlı insanlara, ahıllara daim diqqət və qayğı göstərilib və həmin insanların qayğı ilə əhatə olunması istiqamətində mühüm tədbirlərə başlanmasını təmin edib. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək daha da gücləndirilir. Dövlət başçısının imzaladığı müvafiq fərman və sərəncamlar, təsdiqlədiyi Dövlət Proqramları ahıllara dövlət qayğısının artırılması sahəsində mühüm addımların atılmasına imkan verib.

Əmək pensiyaçılarının mühüm bir hissəsi ahıllardır. Ötən dövrdə ölkəmizdə pensiyaların dəfərlərlə artırılması təmin olunub. Xüsusilə 2019-cu ildəki inqilabi sosial islahatlar nəticəsində minimum pensiya 72,4 faiz, yaşa görə müavinət 80 faizə yaxın artırılıb. Təkcə son üç ildə orta aylıq pensiyalarda 60 faiz artım, pensiya istiqaməti üzrə ödənişlərə ayrılan illik maliyyə vəsaitində 50 faizə yaxın artım özünü göstərib. Pensiya təminatı sistemində son illərdə hümanist yanaşmalar da tətbiq edilməklə, yaşlı nəslin bu təminat növünə əlçatanlığı xeyli artırılıb.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü əsasında icra olunan, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və BMT-nin Əhali Fondunun birgə həyata keçirdiyi "Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi" layihəsi də hökumətin yaşlıların rifahının təmin edilməsi istiqamətində gördüyü işlərə mühüm dəstəkdir. Layihə çərçivəsində yaşlı, ahıl şəxslərin fəal və sağlam həyat tərzi keçirmələrinə dəstək üçün müxtəlif tədbirlər, proqramlar həyata keçirilir.

Ahıl vətəndaşların bir qismi də İkinci Dünya müharibəsi iştirakçılarıdır. Həmin vətəndaşlar Prezidentin aylıq təqaüdləri ilə təmin edilir ki, bu təqaüdlərin məbləği də ötən dövrdə dəfələrlə artırılıb. Onlara pensiya təyin olunarkən pensiyalarına qanunvericilikdə nəzərdə tutulmuş qaydada əlavələr hesablanıb. Hər il 9 May - Qələbə günü ərəfəsində dövlət başçısının sərəncamları əsasında İkinci Dünya müharibəsi iştirakçılarına birdəfəlik maddi yardımlar ödənilir və son illərdə bu maddi yardımın məbləği 3 dəfə artırılaraq 500-dən 1500 manata, döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə və s. görə medal və döş nişanı ilə təltif edilmiş şəxslərə 4 dəfəyə yaxın artırılaraq 200 manatdan 750 manata çatdırılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən dövrdə 100-dən çox II Dünya müharibəsi əlili mənzillə, 1150-yə yaxın II Dünya müharibəsi əlili avtomobillə təmin olunub.




Son illərdə nazirliyin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində də müasir yaşayış şərait yaradılıb. Müəssisə üçün 5 mərtəbəli 170 yerlik ikinci korpus inşa olunub. Heydər Əliyev Fondu tərəfindən Ahıl şəxslər üçün sosial xidmət müəssisəsi sakinlərinə daim diqqət və qayğı göstərilir, ahılların vaxtaşırı tibbi müayinələri təşkil olunur, ahıllarla görüşlər, onlarla bağlı layihələr həyata keçirilir. COVID-19 pandemiyası dövründə də müəssisə sakinlərinin infeksiyadan qorunmasına Heydər Əliyev Fondu tərəfindən xüsusi dəstək göstərildi, müəssisə dezinfeksiyaedici vasitələr, maskalar və s. qoruyucu vasitələrlə təmin edildi.

Həmçinin pandemiya dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 15 min tənha yaşlıya və əlilliyi olan şəxsə evlərində, 1000-dən çox şəxsə sosial xidmət müəssisələrində sosial xidmətlər göstərildi. Hazırda nazirliyin tabeliyindəki Sosial Xidmət Agentliyi tərəfindən bütün tənha ahıl və əlilliyi olan şəxslər evlərində zəruri sosial-məişət xidmətləri ilə təmin edilirlər.

## Tovuzlular bu il də bol kartof yetişdiriblər



Əvvəli 1-ci səh.

Tovuz Aqrar İnkişaf Mərkəzinin direktoru Emin Eyvazov deyir ki, bu il rayonda 6 min 245 hektar sahədə kartof əkilmişdir: "Sahələrə göstərilən yüksək aqrotexniki qulluq nəticəsində bol məhsul yetişmişdir. Əkilən toxumun bir hissəsi yerli sortlar olsa da, bir hissəsi Rusiyadan, bir hissəsi Türkiyədən, bir hissəsi isə Ukraynadan gətirilmişdir. Bundan başqa, dağ kəndlərində ənənəvi toxumçuluğun inkişaf etdirilməsi üçün də tədbirlər görülür".

Əvvəlki illərdən fərqli olaraq builki əkinlərin 90 faizi texnikanın köməyi ilə aparılmışdır: "Səpindən tutmuş, yığıma kimi bütün işlər texnikanın köməyi ilə görülür ki, bu da kartofun maya dəyərini xeyli aşağı salır. Təkcə onu demək kifayətdir ki, kartofsəpən texnika təxminən 100 nəfərin bir həftəyə görə biləcəyi işi bir günə yerinə yetirir. Üstəlik, texnika ilə becərilən sahələrdə məhsuldarlıq daha yüksək olur".

Tovuz rayonunda demək olar ki, bütün kəndlərdə kartof yetişdirilir. Ən çox kartof Alakol, Əyyublu, Düz Qırıxlı kəndlərində, həmçinin Qovlar şəhərində əkilir. Əyyublu kəndində kartofçuluqla məşğul olan yüzlərlə təsərrüfat var. Demək olar ki, kəndin 90 faiz əhalisi kartof əkir. Becərilən məhsulun bir hissəsi elə sahədəcə satılır. Qalanı isə kənddə olan soyuducu anbara yığılır. Onu da qeyd edək ki, rayonun dağ kəndləri sakinlərinin əsas qazancı kartofçuluqla bağlıdır.

Hər il Böyük Qışlaq, Çataq, Çeşməli, Göyəbaxan və Həsənli dağ kəndlərində də bol məhsul yetişdirilir. Fermer Sakit Yəhyayev deyir ki, kartof toxumlarını Rusiyadan özü gətirir. Bu toxumların məhsuldarlığına əmin olduğu üçün həm özü istifadə edir, həm də fermerlərə satır. "Anna Koroleva" və "Arizona" toxumları məhsuldar olduğundan kartofun bu sortlarına üstünlük verir.

Kərəm Səfərov uzun illərdir ki, kartof istehsalı ilə məşğuldur. İstehsal etdiyi məhsulu saxlamaq üçün özünün 1000 tonluq soyuducu anbarı var. Hər il 50 hektarda kartof əkən fermerin kartofçuluq üçün lazım olan bütün texnikası vardır. Mövsüm zamanı fermerin təsərrüfatında 100 nəfərədək adam kartof yığımı ilə məşğul olur. Onların hər biri gündəlik 15-17 manat əməkhaqqı alır. Havalar əlverişli keçəndə fermer kartof yığımına kənar rayonlardan da işçi qüvvəsi cəlb edir.

Rayonda kartof istehsalçılarının sayı ilbəil artır. Hamısı da qazancından razıdır. Məsələn, Alakol kəndinin sakinləri Çoban İbrahimov 3 hektardan 90, Alı Əsgərov bir o qədər sahədən 91, Məmməd Həsənov 1,5 hektardan 45 ton kartof götürür.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində aparılan işlər və qarşıda duran vəzifələr müzakirə olunub

### Bu il 37 mindən çox şəxsə əlillik təyinatı aparılıb, əlilliyi olan şəxslərə 35 mindən çox reabilitasiya vasitəsi verilib



Əlilliyin qiymətləndirilməsinin rəqəmsal infrastrukturu təkmilləşdirildikcə, funksional imkanları, inteqrasiya dairəsi genişləndikcə tibbi-sosial ekspertizanın operativliyi və daha şəffaf həyata keçirilməsi, müraciətlərə obyektiv, çevik baxılması da təmin olunur.

Bu məqsədlə "Əlillik" altsistemində son aylarda 20-dən çox təkmilləşdirmə işi aparılıb, həmçinin "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsistemi tətbiq edilib.

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində aparılan işlər və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirilib.

Prezident İlham Əliyevin tapşırığına əsasən, sosial sahədə aparılan genişmiqyaslı islahatların əliliyin qiymətləndirilməsi və reabilitasiya sahəsini də əhatə etdiyi vurğulanıb. Bildirilib ki, əsas hədəf əlilliyin şəffaf şəkildə təyinatı, əsassız əlillik təyinatlarının qarşısının alınmasıdır. Əlillik və sosial ödənişlərin təyinatının buna haqqı çatan şəxslərə şamil olunması, sosial ədalət prinsipinə uyğun yanaşmanın əlillik sahəsində tam təmin edilməsidir.

Bu il artıq 37 mindən çox şəxsə əlillik təyinatı aparılıb, onlardan 12 mindən çoxuna ilkin, qalan hissəsinə təkrar əlillik təyin olunub. Eyni zamanda Vətən müharibəsi qazilərinin əlilliyinin qiymətləndirilməsi xüsusi diqqətdə saxlanır. Aidiyyəti qurumlarla, o cümlədən Müdafiə Nazirliyi ilə bu sahədə koordinasiya olunmuş şəkildə ardıcıl işlər aparılır. "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsistemi də bu istiqamətdə öz töhfəsini verir. Artıq 2 minədək qaziyə əlillik və sosial ödənişlər təyin olunub, proses davam edir.

İclasda nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Anar Bayramov agentliyin gördüyü işlər və qurumun planlarına dair təqdimatla çıxış edib. Həmçinin agentlikdə sənədlər və vətəndaş müraciətləri ilə iş, "Əlillik" və "Reabilitasiya" altsistemlərinin funksional imkanlarının artırılması üçün aparılan işlər, reabilitasiya müəssisələrinin, Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin fəaliyyəti barədə təqdimatlar edilib. Vətəndaşların reabilitasiya mərkəzlərinə qəbulu üçün qeydiyyatın "onlayn müstəviyə keçirildiyi, vahid reabilitasiya informasiya idarəetmə sisteminin yaradılmasının nəzərdə tutulduğu, bu il reabilitasiya mərkəzlərində 5 mindən çox şəxsə xidmət göstərildiyi, əlilliyi olan şəxslərə 35 mindən çox reabilitasiya vasitəsi verildiyi, qazilərin yüksək texnologiyalı protezlə təminatı işlərinin davam etdirildiyi qeyd edilib.

# Bakıda fəal və sağlam yaşlanmaya həsr olunmuş fotosərgi keçirilir





**Oktyabrın 1-də Beynəlxalq Ahıllar Günü ilə əlaqədar Bakıda fəal və sağlam yaşlanma mövzusuna həsr olunmuş fotoşəkillərdən ibarət sərgi təşkil edilib.**






AZƏRTAC xəbər verir ki, sərgi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü əsasında icra olunan, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və BMT-nin Əhali Fondunun (UNFPA) birgə həyata keçirdiyi "Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi" layihəsi çərçivəsində keçirilir.

Üç gün davam edəcək sərginin açılışı "Hilton Bakı" hotelində baş tutub. Sərgidə layihəyə cəlb edilmiş yaşlı insanların müxtəlif sahələrdə aktiv fəaliyyətlərini, fəal həyat tərzini əks etdirən, peşəkar fotoqraflar tərəfindən çəkilmiş fotoşəkillər təqdim olunur. Məqsəd yaşlanma fenomeni ilə bağlı bir sıra hallarda mövcud olan stereotiplərin və yaşlanmaya şüurlarda ənənəvi yanaşmanın pozitiv təsəvvürlərlə əvəz olunmasını təşviq etməkdir. Nümayiş olunan fotoşəkillər yaşlanmanın ümumi qəbul olunmuş təsəvvürdəki passiv təbiətinə tamamilə əks olan və özündə dinamikliyi, müsbət enerjini və həyatsevərliliyi birləşdirən fəal və sağlam yaşlanma əhvali-ruhiyyəsini insanlara çatdırır.

Sərginin açılışı tədbirinə Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, BMT-nin Əhali Fondunun, digər tərəfdaş qurumların nümayəndələri, layihənin müxtəlif fəaliyyətlərinə cəlb olunmuş yaşlı şəxslər, media mənsubları qatılıblar.

İştirakçılara fəal yaşlanma barədə məlumat verilib, bu anlayışın nəinki ayrı-ayrı insanların, bütün cəmiyyətin rifahı və tərəqqisi üçün mühüm əhəmiyyətə malik olması vurğulanıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin nümayəndəsi Fərqan Abaszadə "Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi" layihəsinin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, layihə yaşlı şəxslərin fəal və sağlam həyat tərzi keçirməsinə yönəlik müxtəlif dəstəkləyici və inklüziv tədbir və proqramları əhatə edir. Ən başlıcası isə bu layihə fəal yaşlanma mövzusunda ictimai məlumatlılığın artırılmasına öz töhfəsini verir. Beynəlxalq Ahıllar Günündə belə bir pozitiv ovqat bəxş edən fotosərginin təşkili də bu istiqamətdə növbəti addımdır.

BMT-nin Əhali Fondunun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Fərid Babayev fəal həyat tərzi sürməyə çalışan yaşlıları öz icmaları və bütövlükdə cəmiyyət üçün müsbət rol modelləri adlandırıb: "Hazırda hamımızın bu cür pozitiv nümunələrə ehtiyacı var. Bu qəbildən olan tədbirlərlə biz məhz bu nümunələri göz önünə gətirməyə və bu müsbət təcrübələri təşviq etməyə çalışmalıyıq. Ümidvaram ki, cəmiyyətimizdə hələ də çox yeni bir məfhum olmasına baxmayaraq, fəal və sağlam yaşlanma mövzusu zaman keçdikcə daha çox insanın diqqət mərkəzinə düşəcək və tədricən daha çox insanlarımızın fəal yaşlanmanı öz həyat kredosuna çevirməsinin şahidi olacağıq".

F.Babayev həmçinin qeyd edib ki, Azərbaycanda yaşlı əhali qrupu arasında iqtisadi aktivliyin artırılması planlaşdırılır: "Dövlətin 65 yaşdan yuxarı şəxslərin təqaüdə çıxmasını təmin etməsi ilə həmin şəxslərin iş fəaliyyətinə bir sıra məhdudiyyətlər tətbiq olunur. Məqsədimiz təqaüdə çıxan ahılların ekspert və ya konsultant kimi fəaliyyət göstərərək iqtisadiyyata dəstək vermələrini təmin etməkdir. Ahılların müxtəlif fəaliyyət tədbirlərinə qoşulması yaşlı əhali qrupunun passivliyini azaldacaq".

Onun dediyinə görə, Azərbaycanda yaşlı əhali qrupunun iqtisadi aktivlik indeksi ilə bağlı metodologiya hazırlanaraq hökumətə təqdim edilib: "Məqsəd ahılların evdə oturaraq yalnız nəvələri ilə vaxt keçirmələri tendensiyasını dəyişmək, cəmiyyətdəki müəyyən stereotipləri qırmaqdır. Yaşlıların aktivlik indeksi bizə onların hansı işlərin öhdəsindən gələ biləcəyini aydınlaşdırmağa kömək edəcək".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin sədri Fərid Məmmədov ölkəmizdə ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi tədbirlərindən bəhs edib. Fəal yaşlanma layihəsinin yaşlı şəxslərin fəal və sağlam həyat tərzi keçirmələrinə, ümumən, hökumətin yaşlılarla bağlı həyata keçirdiyi sosial müdafiə tədbirlərinə bir dəstək olduğunu diqqətə çatdırıb.

Fotosərgi növbəti iki gün ərzində Dənizkənarı Bulvar ərazisində açıq havada davam edəcək.

# "Azərbaycanı dünya liderliyinə aparan böyük yol" mövzusunda videokonfrans olub

Oktyabrın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının təşkilatçılığı ilə "Azərbaycanı dünya liderliyinə aparan böyük yol" mövzusunda videoformatda konfrans keçirilib.



Bu barədə AZƏRTAC-a partiyanın Mətbuat xidmətindən bildirilib.

YAP Veteranlar Şurasının üzvlərinin, partiyanın Gəncə, Tovuz, Daşkəsən, Göygöl, Şəmkir, Samux, Gədəbəy, Naftalan, Qazax, Ağstafa, Siyəzən, Şabran, Xaçmaz, Quba, Qusar, Xızı rayon təşkilatlarının fəal üzvlərinin iştirakı ilə keçirilən konfransı giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, Ulu Öndər Heydər Əliyevin şah əsəri olan Azərbaycan yaxın günlərdə dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümünü qeyd edəcək: "Müstəqilliyimizin ilk illərində yaşananlar hər kəsə məlumdur. 1991-1993-cü illər Azərbaycanın çoxəsrlik tarixinə qara səhifə kimi yazılıb. Həmin dövrdə ölkədə xaosun, anarxiyanın, özbaşınalıqların, iqtisadi böhranın baş alıb getməsi xalqda sabaha böyük ümidsizlik ovqatı yaratmışdı. Belə çətin bir dövrdə xalq üzünü öz xilaskarına - Ulu Öndər Heydər Əliyevə tutdu. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Liderin düşünülmüş və məqsədyönlü siyasəti qısa müddətdə Azərbaycanı sabitlik diyarına çevirdi. Azərbaycanda bütün inkişafın əsası kimi qəbul olunan sabitliyin, normal iqtisadi mühitin yaradılması ölkəmizin böyük investisiyalar məkanına çevrilməsinə, ən əsası siyasi müstəqilliyinə geniş imkanlar açdı. Azərbaycan beynəlxalq münasibətlər sisteminin fəal üzvünə çevrildi".

A.Rəhimzadə diqqətə çatdırıb ki, son 18 ildə Ulu Öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən bütün sahələrdə uğurla davam etdirilməsi nəticəsində bu gün Azərbaycanın sözünün imzası qədər əhəmiyyəti olduğunu böyük inamla deyirik.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, biologiya elmləri doktoru, professor Urxan Ələkbərov mövzu ətrafında geniş məruzə ilə çıxış edib. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin gələcəyə hesablanmış siyasətinin təntənəsi bugünkü Azərbaycandır. O Azərbaycan ki, 44 gündə Prezident İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində 30 ilin işğalına son qoydu, ədaləti, ərazi bütövlüyümüzü bərpa etdi.

U.Ələkbərov hərbi-siyasi uğurun informasiya təminatından bəhs edib: "Dövlət başçısı İlham Əliyevin istər 44 günlük Vətən müharibəsi, istərsə də hazırkı postmünaqişə dövründə xarici mətbuata müsahibələrinə diqqət yetirdikdə informasiya cəbhəsində üstünlüyümüzün özünü qabarıq şəkildə büruzə verdiyini görürük. Ölkə Prezidenti böyük qətiyyətlə 30 illik işğal dövrünün reallıqlarını, Azərbaycanın beynəlxalq səviyyədə qəbul olunan ərazilərinin geri qaytarılması istiqamətində səylər göstərdiyini, 30 ildə sülh danışıqlarına üstünlük versə də qarşı tərəfin əsassız iddiaları, imitasiya naminə danışıqlara qoşulması nəticəsində sülh yolunun səmərə vermədiyini konkret faktlarla diqqətə çatdıraraq bir daha bildirir ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını böyük qətiyyətlə aldı, tarixə Zəfər səhifəsini yazdı".

Məruzə ətrafında çıxış edən YAP Veteranlar Şurasının üzvü Dilarə Seyidzadə bu gün beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutan, söz sahibi olan Azərbaycanın uğurlarında Heydər Əliyev yolunun rolundan danışıb. Bildirib ki, bu siyasətin son 18 ildə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanı qalib ölkə kimi tanıtdı.

YAP Veteranlar Şurasının üzvü Südeyif İmamverdiyev bildirib ki, dahi şəxsiyyət Heydər Əliyev uğurlu və düşünülmüş siyasəti ilə Azərbaycanı bir dövlət olaraq dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdisə, onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev adını tarixə işğal altında olan torpaqlarımızın xilaskarı kimi yazdı.

YAP Veteranlar Şurasının üzvləri Əli Həsənov və Tahir Rzayev tarixi Zəfərimizin Azərbaycanı inkişafa, tərəqqiyə aparan yolun təqdimatı olduğunu bildiriblər. Qeyd ediblər ki, möhkəm təməl daim ölkəni inkişafa, tərəqqiyə aparır. Azərbaycan dünya birliyinin fəal üzvü kimi cərəyan edən proseslərə ədalətli mövqeyini nümayiş etdirir, balanslaşdırılmış xarici siyasəti ilə davamlı uğurlara imza atır.

Videokonfrans diskussiya şəklində davam edib.

YAP Şəmkir rayon təşkilatının üzvü Emin İsmayılovun, Tovuz rayon təşkilatının üzvü Nihad Pənahovun, Şabran rayon təşkilatının üzvü Gülər Kərimovanın və Göygöl rayon təşkilatının üzvü Vüqar Hüseynovun sualları cavablandırılıb.

# DİN Daxili Qoşunlarının şəhid olmuş hərbi qulluqçusu anılıb

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmış Daxili İşlər Nazirliyi (DİN) Daxili Qoşunlarının hərbi qulluqçusu baş çavuş Tural Şakir oğlu Abdullayevin oktyabrın 1-də il mərasimi keçirilib.




DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərasimdə daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev, Daxili Qoşunlar Komandanının müavini general-mayor Vidadi Əliyev, Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Əkbər İsmayılov, Xəzər və Sabunçu Rayon İcra hakimiyyətlərinin başçıları, şəhidin ailə üzvləri, döyüş yoldaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

İştirakçılar əvvəlcə şəhid T.Abdullayevin Xəzər rayonunun Binə qəsəbəsindəki Şəhidlər xiyabanındakı məzarını ziyarət edib, önünə çiçək dəstələri düzüblər. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən nazir müavini İ.Əliyev və digərləri T.Abdullayevin şərəfli, hər bir gənc üçün örnək olan ömür yolundan, Daxili Qoşunlardakı nümunəvi hərbi xidmətindən, eləcə də Vətən müharibəsindəki hərbi əməliyyatlar zamanı göstərdiyi qəhrəmanlıq, fədakarlıq, mərdlik və igidlik nümunələrindən söhbət açıb, ölümündən sonra Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən xidmətlərinin yüksək qiymətləndirildiyini, hər bir şəhid ailəsinin, qazinin ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunduğunu tədbir iştirakçılarının nəzərinə çatdırıblar. Şəhidin atası Şakir Abdullayev Vətənə xidmətin hər bir övladın borcu olduğunu deyərək, şəhid oğlu ilə fəxr etdiyini, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə baş çavuş Tural Şakir oğlu Abdullayev ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

# Qarabağ Dirçəliş Fondu alış-veriş mərkəzlərində "Qarabağda urbisid" adlı fotosərgilərə start verib

Qarabağ Dirçəliş Fondunun fəaliyyətində ermənilərin azad olunmuş ərazilərimizdə apardıqları qeyri-qanuni fəaliyyət və işğal nəticəsində Qarabağa dəyən zərər barədə məlumatların geniş ictimaiyyətə çatdırılması xüsusi önəm kəsb edir.




Bu məqsədlə Qarabağ Dirçəliş Fondu ermənilərin Qarabağda törətdikləri dağıntıların görüntülərinin əks olunduğu "Qarabağda urbisid" sərgisini mütəmadi olaraq fərqli platformalarda təşkil edir.

AZƏRTAC xəbər verir ki, ideya müəllifi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın olduğu "Karabakh.Center" layihəsi çərçivəsində fond oktyabrın 1-dən 30-dək "Gənclik Mall", "Port Baku Mall" və "Dəniz Mall" alış-veriş mərkəzlərində (AVM) erməni işğalçıları tərəfindən törədilən dağıntıların əks olunduğu "Qarabağda urbisid" adlı fotosərgiləri bütün ictimaiyyətə açıq elan edir. Sərgi torpaqlarımızın 30 illik işğalı dövründə xalqımızın Qarabağdakı maddi-mədəni irsinə, bu regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən zərərə həsr olunub.

Sərgi həftənin 7 günü saat 10:00-dan 22:00-a qədər fəaliyyət göstərəcək. Sərgiyə cəlb olunan "Bir" Tələbə-Könüllü İctimai Birliyinin könüllüləri gün ərzində nümayiş olunan fotoşəkillər, eyni zamanda Qarabağ Dirçəliş Fondunun fəaliyyəti barədə ziyarətçiləri məlumatlandıracaqlar. "Gənclik Mall", "Port Baku Mall", "Dəniz Mall"da keçirilən sərgi Paşa İnşaat "Malls Group"un dəstəyi ilə reallaşıb.

Qeyd edək ki, işğal altında olan ərazilərdəki dağıdılmış və ciddi ziyan dəymiş obyektlərin 10 mindən çox fotoşəkli və videogörüntüsünün yer aldığı "Karabakh.Center" (https://karabakh.center/az) internet resursu Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri, Ermənistanın təcavüzünün nəticələri barədə obyektiv məlumatların sistemləşdirilməsi və geniş ictimaiyyətə çatdırılması məqsədilə yaradılıb.

# Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun tikintisi sürətlə davam etdirilir

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlət başçısının tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoludur.

AZƏRTAC xəbər verir ki, başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Cəbrayıl rayonu Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanır. Tikintisi aparılan yolun uzunluğu 39.7 kilometrdir.

Dövlət başçısının tapşırığına əsasən, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. İnşa edilən yolun hərəkət hissəsi 14 metr, çiyinlər isə 2x1,5 metr təşkil edəcək.

İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "13 N-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC ilə subpodratçı olaraq yol tikintisi sahəsində ixtisaslaşmış yerli şirkət "Körpü-Bina-Tikinti" MMC birgə icra edir.

Hazırda sözügedən avtomobil yolu boyunca torpaq işləri və süni qurğuların inşası aparılır. Belə ki, yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun 21.5 metr enində yol yatağının inşası davam etdirilir. Artıq yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi və hamarlayıcı layın döşənməsi işlərinə də başlanılıb.

Yol boyunca layihəyə uyğun olaraq suların ötürülməsini təmin etmək məqsədilə 38 dairəvi boru və 7 düzbucaqlı suötürücü, həmçinin yolun 1, 18, 19, 26, 30 və 38-ci km-lik hissələrində 6 yeni avtomobil körpüsünün inşası davam edir. Körpülərdən biri Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolu ilə kəsişmədə inşa ediləcək. Bununla da sözügedən avtomobil yolundan magistral yola rahat giriş-çıxış təmin olunacaq.

Bununla yanaşı, tikiləcək yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə 11 yerdə yolaltı keçidlərin tikintisi də aparılır. Artıq layihə üzrə nəzərdə tutulan 12 dairəvi boru və 4 yolaltı keçidin inşası yekunlaşıb. Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir.

Görülən işlərə paralel olaraq tikinti ərazisinə cəlb olunmuş xüsusi texnikaların çevik hərəkətinin təmin edilməsi məqsədilə yol çiyinlərinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işləri də aparılır. Yolun tikintisinin qısa müddət ərzində başa çatdırılmasını təmin etmək məqsədilə ərazidə düşərgə inşa olunub. Düşərgədə asfalt-beton zavodu, maşın-mexanizmlərin saxlanılması və xidməti üçün xüsusi ərazi, həmçinin işçilər üçün hər bir şəraiti olan ofis, yeməkxana və dincəlmək üçün yerlər qurulub.

Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla sözügedən rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

Bütün yollar Qarabağa aparır...

# "Qarabağ" Kiprdə "Omoniya"ya ustad dərsi verdi



## Ağdamlılar Vətənə 4:1 hesablı qələbə ilə döndülər

*Əvvəli 1-ci səh.*

Birinci hissənin yarıdan çoxunu təzyiq altında olan meydan sahibləri arabir əks-hücumlara atılsa da, futbolçularımız onlara təhlükəli epizod yaratmağa imkan vermirdi və üstünlük "Qarabağ"da qalırdı.

Lakin 40-cı dəqiqədə "Omoniya" standart vəziyyətdən maksimum yararlanmağı bacardı - kiprlilərin hündürboylu müdafiəçisi Yan Letsyak "ikinci mətəbədə" hamını qabaqlayaraq hesabı açdı - 1:0.

Adətən, fasiləqabağı buraxılan qol futbolçulara pis təsir edir. Amma təcrübəli və döyüşkən "Qarabağ" bu sınaqdan da uğurla çıxdı. İkinci hissənin əvvəlindən kəsərli hücumların qurulması ilə ağdamlılar meydan sahiblərinə daha güclü təzyiq göstərməyə başladılar və tezliklə bu, öz bəhrəsini verdi. 52-ci dəqiqədə braziliyalı legioner Kadi təxminən 30 metr məsafədən dəqiq zərbə endirdi - 1:1.

Bundan sonra "Qarabağ"ın hücumları bir-birini əvəzləyirdi və təzyiqə tab gətirməyən kiprlilər "sındılar". 73-cü dəqiqədə Ramil Şeydayev fərqləndi və komandasını hesabda irəli çıxardı. 6 dəqiqədən sonra kapitan Maksim Medvedev 11 metrlik cərimə zərbəsini zərgər dəqiqliyilə yerinə yetirdi - 3:1. Oyunda son nöqtəni isə 90+4-cü dəqiqədə dubla imza atan Kadi qoydu və "Omoniya"- "Qarabağ" qarşılaşmasında darmadağın rəsmiləşdi - 1:4.

Ağdamlılar ardıcıl olaraq ikinci matçda yüksəksəviyyəli futbol nümayiş etdirir və vurulan-buraxılan topların ən yaxşı fərqi sayəsində öz qrupunda 4 xalla liderlik edir.

"Mən daha çətin oyun gözləyirdim. Rəqibi qiymətləndirməmək olmaz. Qarşıdakı matçlarda da bu cür çıxış etməliyik." Bu sözləri "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov oyundan sonra mətbuat konfransında deyib.

"Yaxşı mübarizə apardıq. Düzdür, ilk hissədə hesabda geri düşdük. Amma futbolçular sonadək mübarizə apardılar. Rəqibə gələcək oyunlarda uğurlar arzulayıram", - deyən Q.Qurbanov əlavə edib: "İlk hissədə də kifayət qədər qol imkanlarımız oldu. Sadəcə, standart vəziyyət zamanı ani diqqətsizlikdən qol buraxdıq. Halbuki oyunçulara daha diqqətli olmağı tapşırmışdıq. İkinci hissədə ruhdan düşmədik, meydana qələbə üçün çıxdıq. İkinci yarı daha sürətli alındı və hücumlarımız kəsərli oldu".

Beləliklə, "Qarabağ" Nikosiyada Kipr çempionu "Omoniya"ya ustad dərsi verdi. Bunu rəqib komandanın baş məşqçisi Henninq Berg də yerli jurnalistlərə müsahibəsində təsdiqləyib: "Bu cür komandalarla oyunda qapını toxunulmaz saxlamaq çətindir... Bu gün biz çox şey öyrəndik. Biz böyümək və daha yaxşı olmaq üçün buradayıq".

Qrupda 3-cü turun oyunları oktyabrın 21-də keçiriləcək. "Qarabağ" Tofiq Bəhramov adına Respublika Stadionunda Qazaxıstan çempionu - Almatının "Kayrat" klubunu qəbul edəcək.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Beynəlxalq aləm

## Müharibədə dizçökdürülən Ermənistan yeni fəlakətlə üzləşib

### Ölkədən köç edənlərin sayı sürətlə artmaqdadır

*Əvvəli 1-ci səh.*

Onlardan biri - Vladimir Vardanyan BBC-yə müsahibəsində Qarabağ müharibəsi zamanı olanları belə etiraf edib: "Onların (azərbaycanlıların - red.) qarşısını almaq mümkün deyildi. Bir halda ki, onlar Şuşaya çatmışdı, Xankəndiyə girmələri dəqiqə məsələsi idi. Biz qalib gələ bilməzdik. Bu, birmənalıdır. Əgər üçtərəfli bəyanat olmasaydı, Azərbaycan müharibəyə davam etsəydi, indi müharibədən geri qayıdan olmayacaqdı".

İndi bu fikirdə olan ermənilərin sayı kifayət qədərdir. Ermənistan Respublikaçılar Partiyasının üzvü Anna Mkrtçyan "Facebook" səhifəsində yazır: "Müharibədən bir il sonra xainlər tərəfindən ələ keçirilmiş dövlət sistemi və başqa sahələrin xidmətçiləri belə xəbər yaymaq barədə tapşırıq alıblar ki, müharibə zamanı fəaliyyətlərinə və hərəkətsizliklərinə görə müxtəlif cinayətlər üzrə adları hallanan 800 müttəhim və 2000-dən artıq cinayət işi var". Mkrtçyan Ermənistan hakimiyyətinə suallar da ünvanlayıb: "Niyə müharibə dayandırılmayıb? Niyə Qarabağa silah və qoşun göndərilməyib? Bunkerdə kim əmrlər verirdi?"

Rusiyalı politoloq, hərbi ekspert Oleq Kuznetsov erməni tərəfində hökm sürən məyusluğu təbii sayır: "2020-ci ildə Qarabağ uğrunda baş tutmuş müharibə Azərbaycanın işğal olunmuş torpaqlarında yerləşən erməni qoşunlarının total şəkildə darmadağın edilməsi, erməni cəmiyyətinin ağır mənəvi-psixoloji məğlubiyyətə uğraması ilə başa çatdı. 44 günə ermənilər üstüstə 70 faiz döyüş texnikasını itirdi, fərariliklə bağlı 10 mindən çox cinayət işi açıldı. Artıq bir neçə ildir ki, Ermənistanın ölkə kimi mövcudluğunun strateji perspektivini görmürəm. Ötən il Qarabağda erməni ordusunun darmadağın edilməsi bu tendensiyanı yalnız gücləndirib. Əgər Azərbaycan öz sərhədlərinin xarici perimetrini silah gücü ilə bərpa edib Naxçıvana dəhliz açarsa, Ermənistanın depopulyasiyası xaos xarakteri alacaq və 15-20 ildən sonra bu ölkədə əmək qabiliyyətli və reproduktiv əhali qalmayacaq. Demək olar ki, artıq Qarabağda əmək qabiliyyətli erməni qalmayıb. Son 30 ildə Ermənistanın mövcud olduğu strategiya öz ölkəsinin və işğal olunmuş Azərbaycan ərazilərinin resurslarını qarət etmək, insan resurslarını və kapitalını xaricə çıxarmaqla diasporunu zənginləşdirmək olub ki, bu da erməniləri məhvedici nəticələrə gətirib çıxarıb. Anladığım kimi, geriyə dönüş nöqtəsi onlar üçün artıq keçilib, indi biz bu ölkənin ləng, əzab-əziyyətli ölümünü müşahidə edirik".

Müharibədən sonrakı Ermənistan indi daha acınacaqlı vəziyyətdədir. Ölkə vətəndaşları Ermənistanı birdəfəlik tərk edirlər. "Zvartnos" hava limanından verilən rəsmi məlumata görə, 2021-ci ilin yanvar-avqust aylarında 48 mindən çox adam Ermənistandan həmişəlik gedib. "Ermənistan" parlament fraksiyasının üzvü, deputat Vaqe Akopyan jurnalistlərə Ermənistanı tərk edənlərin sayının kosmik səviyyəyə çatdığını bildirib. Onun sözlərinə görə, Zəngəzurdan xaricə köç edənlərin sayı günbəgün artır. Deputat deyib ki, 2021-ci ilin ilk 6 ayında Ermənistanı 110 min nəfər tərk edib. Bu isə o deməkdir ki, Ermənistan vətəndaşları çıxış yolunu ölkəni tərk etməkdə görürlər.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## BMT-nin Baş katibi Myanmadakı vəziyyətə reaksiya verməyə çağırıb



**BMT-nin Baş katibi Antoniu Quterriş beynəlxalq ictimaiyyəti Myanmadakı mövcud böhranın Cənub-Şərqi Asiya miqyasında fəlakətə çevrilməməsi üçün təcili tədbirlər görməyə çağırıb.**

O, gələcəkdə Myanmada hərbçilərə kənardan təsir etməyin daha da çətinləşəcəyindən ehtiyatlandığını da bildirib. "Ağır humanitar fəsadlar, məsələn, ərzaq təhlükəsizliyinin sürətlə pisləşməsi, kütləvi daxili miqrasiya və ictimai səhiyyə sistemində problemlər, COVID-19-un yeni dalğası ilə daha da dərinləşir. Myanmanın demokratik islahatlar yoluna qayıdışı məsələsi bizdən regional oyunçularla əməkdaşlıqda koordinasiyalı yanaşma tələb edir", - deyə BMT-nin Baş katibi vurğulayıb.

Antoniu Quterriş hərbi çevriliş zamanı saxlanılan Prezident Vin Myini, dövlət müşaviri Aun San Su Çjini və digər hökumət işçilərini dərhal azad etməyə çağırıb.

BMT başçısı Myanmada Konstitusiya qaydasının bərpa edilməsinin və 2020-ci ilin noyabrında keçirilmiş seçkilərin nəticələrinin rəsmi şəkildə təsdiqlənməsinin zəruriliyini qeyd edib. Bundan başqa, Antoniu Quterriş hərbçiləri ölkəyə ilk növbədə əhalinin və icmaların zəif təbəqələri üçün nəzərdə tutulmuş humanitar yardımın dərhal çatdırılmasını təmin etməyə çağırıb.

## Sudan polisinə etirazçılara qarşı silah işlətmək qadağan olundu



Sudanın Baş Prokurorluğu hüquq mühafizə qüvvələri əməkdaşlarına ölkədə mülki administrasiyanın formalaşdırılması tələbi ilə etiraz aksiyaları iştirakçılarına qarşı silahdan istifadə etməyi qadağan edib. Bu barədə yerli KİV xəbər verir.

Qərar Sudanın gələcək inkişafını müəyyən edən Konstitusiya bəyannaməsi üzrə razılaşma əsasında qəbul edilib.

Baş Prokurorluqdan bildiriblər ki, etiraz aksiyaları zamanı insan hüquqlarının pozulmasının qarşısını almaq məqsədilə paytaxt Xartumun 18 rayonunda prokurorluq orqanlarının əməkdaşları işləyir.

"Xalq inqilabın tələblərinə qayıtdı. Aksiya iştirakçıları dəqiq tələblər və çağırışlar səsləndiriblər. Biz geri çəkilmək fikrində deyilik. Sudanlılar hakimiyyətin tam şəkildə mülki administrasiyaya ötürülməsinin tərəfdarıdırlar", - deyə aksiya iştirakçılarından biri bildirib.

Qiyamçılarla müxalifət arasında 2019-cu ilin avqustunda əldə edilən razılaşmaya əsasən, Sudanda keçid prosesi 53 ay davam edəcək.

2019-cu ilin əvvəlindən ölkəyə rəhbərlik edən Sudanın Suveren Şurasının tərkibində hərbçilər də var.

## İraqın şimalında xüsusilə təhlükəli PKK terrorçusu məhv edilib





Türkiyə Silahlı Qüvvələri və xüsusi xidmət orqanlarının İraqın şimalındakı Kandil rayonunda birgə fəaliyyəti nəticəsində PKK terrorçularının Kərkük üzrə "məsul şəxs"i Mehmet Hatip Arıtürk zərərsizləşdirilib. Bu barədə Türkiyənin təhlükəsizlik strukturlarındakı mənbələrin məlumatına istinadən "Anadolu" Agentliyi xəbər verib.

Mehmet Hatip Arıtürk "Delil Siirt" kod adı altında İraqın şimalındakı Kərkük əyalətində terror təşkilatının əməliyyatlarına nəzarət edirdi. O, Suriyadakı Afrin rayonunun dinc əhalisinə qarşı PKK terrorçularının bir sıra qanlı hücumlarında iştirak edib.

Terrorçu 2016-cı ildə PKK dəstələrinin təchizatını təşkil etmiş, sonradan xaricdən Türkiyəyə qarşı istifadə olunan ağır silah-sursat göndərilməsinə görə "cavabdeh" olmuşdur.




## Kameralı eynəklər



"Facebook" sosial şəbəkəsi klassik eynəkləri ilə məşhur olan "RayBan" şirkəti ilə birlikdə maraqlı bir yeniliyə imza atıb. Görünüş etibarilə gün eynəklərindən fərqlənməyən bu gözlüklərin qeyri-adiliyi foto və video çəkməsidir. İstifadəçi mobil telefonuna "Facebook View" proqramını yükləyir. Daha sonra eynəyin üzərində olan düyməyə basaraq və yaxud, sadəcə, "Facebook, video çək" deyərək cihazı işə salır. 5 meqapiksel kamera ilə çəkilən şəkillər dərhal "Facebook", yaxud istifadəçinin seçdiyi digər proqramlara yüklənilir. Enerji tutumu 6 saat olan eynəklərin yaddaşı təxminən 500 şəkil və ya 30 saniyəlik 30 video saxlaya bilmə qabiliyyətinə sahibdir.

"RayBan Stories" adlandırılan eynəklər yaxın günlərdə ABŞ, Kanada, Böyük Britaniya, İtaliya, İrlandiya və Avstraliyada satışa çıxarılacaq. Model və çərçivələri isə üz quruluşlarına və zövqlərinə uyğun olaraq alıcılar özləri seçəcək.

## Texnofest - 2021




**Türkiyədə təşkil edilən aviasiya, kosmos və texnologiya festivalı olan Texnofest sentyabrın 21-dən qapılarını ziyarətçilərə açıb. 5 gün davam edən və 70-dən çox şirkətin, məktəb və universitetin, eyni zamanda, müxtəlif yaşlı ixtiraçıların qatıldığı festival artıq dördüncü ildir ki, İstanbuldakı Atatürk Beynəlxalq Hava Limanında keçirilir.**

Texnofestdə 35 fərqli yarış arasında diqqət çəkənlər kommunikasiya texnologiyaları, insansız sualtı sistemləri, uçan avtomobillər kimi gələcəyin prioritet sahələridir. Sərgidə bir çox yeniliklər ziyarətçilərə təqdim olunub. Türkiyənin ilk turbodizel aviasiya mühərriki də nümayiş etdirilib. Digərlərindən 5 kiloqram yüngül və 55 at gücü daha güclü olan bu mühərrik pilotsuz uçuş aparatları üçün daha sərfəlidir.

Festivalda Azərbaycan məhsullarını görmək ayrıca bir qürurdur. Tədbirdə Azərbaycanın iki "MiQ-29" təyyarəsi, eləcə də "İti qovan", "Orbiter 2", "Orbiter 3", "Orbiter 4" kimi pilotsuz hava vasitələri də sərgilənir. "MiQ-29" təyyarələri İstanbulda təşkil olunan hava şoularında da iştirak ediblər.

## Xidmətçi robotlar

**Texnologiyanın sürətli inkişafı həyatımıza yeniliklər gətirməkdədir. Hətta onların bəziləri insan əməyini əvəz edərək bir sıra peşə və ixtisaslara olan ehtiyacı aradan qaldırır. Bunlardan biri xidmətçi robotlardır.**



Bu gün inkişaf etmiş ölkələrdə ən müxtəlif sahələrdə tətbiq olunan robotlardan son illər artıq restoran və kafelərdə də istifadə edilir. Bu, pandemiya dövründə daha da çoxalıb. Restoran və kafelərə daxil olan müştərilər onları qarşılayan və yer göstərən robotlar vasitəsilə menyudan seçdikləri yeməkləri sifariş edirlər. Robotlarda quraşdırılmış xüsusi cihaz vasitəsilə sifarişlər mətbəxə ötürülür və hazır olduqdan sonra məlumat elə həmin robota çatdırılır. Xidmətçi robot mətbəxdən müştərinin sifarişini gətirib masaya təqdim edir və əgər nə isə bir çatışmazlıq varsa, dərhal bunu "diqqətə alır".

## Lazer tozsoran



**İngiltərənin "Dyson" şirkəti dünyanın qabaqcıl texnologiya istehsalçılarından biri hesab edilir. Onun istehsal etdiyi məhsullar sırasına müxtəlif çeşidli məişət texnikaları daxildir. Bu yaxınlarda şirkət daha bir yeniliyə imza atıb. Belə ki, lazer texnologiyası əsasında hazırlanmış tozsoranları ictimaiyyətə təqdim edib.**

Sual yarana bilər ki, bu tozsoranların əvvəlkilərdən fərqi nədir və lazer texnologiyasının belə məhsullara tətbiqi hansı üstünlükləri özündə ehtiva edir?

Bu naqilsiz tozsoranların ən başlıca üstünlüyü digər model tozsoranların görə və götürə bilmədiyi ən xırda tozları belə təmizləyə bilməsidir. Sınaq dövründə otaq əvvəlcə ənənəvi tozsoranla təmizlənib. Daha sonra lazer texnologiyasına əsaslanan yeni məhsul həmin məkanda yenidən təmizlik işi aparıb və nəticə heyrətləndirici olub. Lazer texnologiyalı tozsoranın üzərindəki LCD ekranda tutulan toz hissəciklərinin ölçüsünü və miqdarını görmək olur. Onun digər bir üstünlüyü isə gücünü və sürətini toz sıxlığına görə azaldıb artırmasıdır.

Yeni tozsorandakı təmizləyici başlıq da sələflərindən əhəmiyyətli dərəcədə fərqlənir. 25 santimetrlik yumşaq neylon və antistatik karbon lifli ipliklərə malik bu başlıq ən xırda tozları belə çoxbucaqlı lazer şüası və vakuum vasitəsilə aşkar edir.

Uzun zamandır maraqla gözlənən bu yeni məhsul sentyabr ayının 15-dən satışa buraxılıb.

## Səhrada süni yağış

**Birləşmiş Ərəb Əmirliklərində mütəxəssislər 2017-ci ildən başlayaraq "süni yağış" layihəsi üzərində iş aparırlar.**



Dünyanın ən quraq bölgələrindən biri olan və hərarətin 50 dərəcəyə çatdığı Dubayda dronların köməyi ilə süni yağış yağdırılıb. Hələ ki, təcrübə xarakteri daşıyan ilk süni yağışın qiyməti 15 milyard dollardır. Bu prosesin vaxt etibarilə uzun sürməsi və az vəsaitin sərf olunması üçün araşdırmalar davam etdirilir.

Süni yağışın yağması üçün dronlarla buludlara buz parçaları atılır. Həmin buz parçaları kimyəvi maddələrdən hazırlanır.

## Paris səmasında taksilər

**Amerika Birləşmiş Ştatlarının "Uber" şirkəti Fransadakı "hava taksiləri" layihəsinə iyirmi milyon avro investisiya qoyub.**




Bu vəsait Parisdə araşdırmalara və layihənin inkişaf mərhələsinə sərf olunacaq. Növbəti beş il ərzində bu ölkənin hava məkanında elektriklə işləyən hava taksilərinin fəaliyyətə başlaması proqnozlaşdırılır.

"Uber" şirkətinin məhz Parisi seçmək səbəbi bu şəhərin araşdırma sahələrindəki nailiyyətləri və mühəndis təminatı ilə bağlıdır. Fransa paytaxtında açılacaq Üstün Texnologiya Mərkəzi məhz bu cür elektrik enerjisi ilə işləyən "uçan" avtomobillər istehsal edəcək.

## Virus telefonla aşkarlanacaq



**Türkiyənin Fırat Universitetinin alimləri koronavirus da daxil olmaqla, bir sıra xəstəlikləri sadəcə öskürək vasitəsilə təyin edib diaqnoz qoya biləcək süni intellektə malik proqram yaradıblar.**

Hələ ki sınaq mərhələsində olan bu layihə ümidləri doğruldaraq 80 faiz düzgün nəticə verir. İstifadəçilər əvvəlcə proqramı mobil telefonlarına və ya "ağıllı" saatlarına yükləyəcəklər. Daha sonra özlərində hər hansı narahatçılıq hiss etdikdə, sadəcə, proqram işə salınıb aktivləşdiriləcək. İstifadəçi öskürək səslərini proqrama yüklədikdən bir neçə dəqiqə ərzində koronavirus və yaxud hər hansı bir virusa yoluxub-yoluxmadığı haqqında məlumat əldə edəcək.

Bununla həm vaxt və pul itkisinin qarşısı alınacaq, ən əsası isə virusa yoluxmuş şəxslərin digər insanlarla təmasları minimuma enəcək.

## Üz tanıma sistemi

**Dünyanı çənginə alan koronavirus dünyada texnoloji yeniliklərin artmasına da təsir edib. Belə ki, Avstraliyanın ən böyük iki əyalətində pandemiya qaydalarına nəzarət etmək üçün bu ilin sonunadək üz tanıma sistemləri tətbiq ediləcək.**

Əslində, bu sistem 2020-ci ildən ABŞ, İngiltərə və Çində cinayət törədən şəxslərin yaxalanmasında polislərə kömək üçün istifadə edilirdi. Lakin epidemiyanın yayılmasının qarşısının alınması məqsədilə ilk dəfə Avstraliyada tətbiq olundu.

İnsanların kütləvi şəkildə toplaşdığı yerlərdə, o cümlədən alış-veriş mərkəzlərində, restoran və kafelərdə tətbiq olunacaq bu qurğu ona yaxınlaşan hər kəsin virusa yoluxub-yoluxmadığını müəyyən edəcək. Bu sistemin ən üstün cəhəti odur ki, qarşı tərəfdən hər hansı bir nəzarətçi və yaxud polis əməkdaşı ilə canlı ünsiyyət olmayacaq.

## Möcüzəvi plastırlar

**Amerika Birləşmiş Ştatlarının Kaliforniya Universitetinin mühəndisləri tərəfindən hazırlanmış plastır ürək döyüntülərinin tezliyini, qan təzyiqi və şəkəri müəyyən edir.**



Bu, insan orqanizmində ürək-damar siqnallarına və bir neçə biokimyəvi prosesə digər müvafiq ölçü cihazlarına ehtiyac olmadan eyni vaxtda nəzarət edən ilk daşınan qurğudur. Yeni məhsul yüksək təzyiqdən və diabet kimi xronoloji xəstəliklərdən əziyyət çəkənlər və ya COVID-19-un ağır formasına meyilli olan insanlar üçün nəzərdə tutulub. O, həmçinin arterial təzyiqin qəfil aşağı düşməsi kimi halların aşkar edilməsi üçün istifadə edilə bilər.

Möcüzəvi plastırın daha bir üstünlüyü odur ki, asanlıqla daşına bilir və ondan istənilən məkanda və şəraitdə rahatlıqla istifadə etmək mümkündür.

## Kosmosda film

**Rus əsilli 2 aktyor və 2 rejissordan ibarət qrup bu il oktyabrın 5-də "Soöz MS-19" raketi ilə Beynəlxalq Kosmos Stansiyasına göndəriləcəklər. 354 kilometr yüksəklikdə yerləşən bu stansiyada dünyanın ilk kosmos filmi çəkiləcək.**

Rejissor və aktyor Klim Şipenko ekipajın Qazaxıstandakı Baykonur kosmodromuna getməzdən əvvəl keçirdiyi mətbuat konfransında deyib ki, filmin qəhrəmanı kosmosun araşdırılması ilə heç bir əlaqəsi olmayan, hətta bu cür səyahəti ağlına belə gətirməyən həkimin hekayəsidir. O, tərəddüd etsə də, Hippokrat andına sadiq qalaraq, hava gəmisindəki kosmonavtın həyatını qurtarmaq üçün kosmik uçuşa razılıq verir.

Ekipaja çəkiliş qrupunun üzvlərindən savayı daxil edilmiş kosmonavtlar bu layihənin uğurla və texniki cəhətdən qüsursuz başa çatmasına kömək edəcəklər. Kosmik gəmi çəkiliş üçün lazım olan bütün texniki avadanlıqlarla təchiz olunmuşdur.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

## AGENCY FOR AGRO CREDIT AND UNDER THE MINISTRY OF AGRICULTURE /AGRICULTURAL COMPETITIVENESS IMPROVEMENT PROJECT
## SELECTION OF CONSULTING COMPANY FOR COMPLETION AND IMPACT ASSESSMENT SURVEY
## AZ-AACD-238506-CS-CQS-D/1-2021
## CONTRACT AWARD NOTIFICATION

**01.10.2021**

This notice includes findings of evaluation of expression of interest for the selection process held for involvement of **Consulting company for completion and impact assessment survey.**

As per procurement plan the selection procedure was conducted as per Consultants Qualifications Selection (CQS) method as specified in the World Bank's *Guidelines: Selection and Employment of Consultants under IBRD Loans by World Bank Borrowers dated January 2011 Revised July 2014.*

Request for Expression of Interest was advertised in www.akia.gov.az and newspaper Azerbaijan, on June 25, 2021 and World Bank web site on June 24, 2021 and deadline for submission of EOIs was specified as July 08, 2021.

Four (12) companies applied to the PMU and submitted EOIs. Evaluation results of EOIs are as follows:

1. Education Management Europe (EME) (Belgium) JV SAGE Solution - Azerbaijan - 55 scores
2. ACT (Georgia) - 80 scores
3. SIAR Research and Consulting Group (Azerbaijan) - 84 scores
4. Emerens Limited (Kenya) JV CCORD (Kenya) - 66 scores
5. ASDL (Bangladesh) JV TEC (Azerbaijan) in assoc. DevEmerge (India) - 82 scores
6. VisionRI Creative Consultant int ltd (India) - 74 scores
7. Universitas International (Azerbaijan) - 82 scores
8. A2F Consulting LLC (USA) - 81 scores
9. Baker Tilly Audit Azerbaijan" Closed Joınt-Stock Company. (Azerbaijan) - 91 scores
10. M-Vector (Kyrgyzstan) in assoc. with ARPA (Azerbaijan) - 85 scores
11. UDA Consulting (Turkey) and ERA Consulting (Azerbaijan) - 86 scores
12. KHATT Consulting (Azerbaijan) - 65 scores

Based on provided information, the Evaluation Committee conducted the evaluation and proposed to send to the Request for Proposal to the most responsive applicant -" Baker Tilly Audit Azerbaijan" Closed Joint-Stock Company.

Contract was awarded to - **"Baker Tilly Audit Azerbaijan" Closed Joint - Stock Company.**

| | |
|---|---|
| Contract price: | 176 753.00 AZN (One hundred seventy six thousands and seven hundred fifty three manats) AZN: lump-sum contract |
| Period of consulting/Services | 4 months |

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün "Maşın və avadanlıqlar" xərc maddəsi üzrə bir sıra malların satın alınması məqsədilə
### *tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 300 (üç yüz) manat məbləğdə heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsi ilə əldə edə bilərlər:

Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin əlavə 1-nə uyğun);*
- *Azərbaycan Respublikasının mövcüd qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə, uyğunluq və s.);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 25.12.2021-ci ilədək icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **22.10.2021-ci il saat 10:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **01.11.2021-ci il saat 10:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **02.11.2021-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***








# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti 110/35/6 kV-luq "205 saylı", "Zığ" və "Puta" YS-nin yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması məqsədilə
### *açıq tender elan edir*

Tender 3 (üç) LOT üzrə keçirilir:

**LOT - 1.** 110/35/6 kV-luq "205 saylı" YS-nin yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

**LOT - 2.** 110/35/6 kV-luq "Zığ" YS-nin yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

**LOT - 3.** 110/35/6 kV-luq "Puta" YS-nin yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

İştirak etmək istəyənlər iştirak haqlarını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra ərizə ilə müraciət edərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanında, "Azərenerji" ASC-nin Tender və müqavilə şöbəsindən ala bilərlər.

Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz filialı**
**Kod: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik istehsalı işləri üzrə başqa layihələrin və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podraçıya təqdim elədiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların və yarımstansiyaların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10 noyabr 2021-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifi isə **18 noyabr 2021-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların tender təklifləri **19 noyabr 2021-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır. İclas onlayn qaydada keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər (onlayn qaydada).

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərenerji" ASC tərəfindən 03 iyul 2021-ci ildə elan edilmiş **Elektrik mallarının satın alınması** üzrə dövlət satınalmalarının vahid internet portalı vasitəsilə keçirilən açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **"Electro Service" QSC** tenderin qalibi müəyyən edilmişdir. Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi Elmi-Tədqiqat İnstitutunun kollektivi institutun direktoru, professor Mürsəl Əliyevə atası

**İLDIRIM BABAŞ OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi energetika nazirinin müavini Kamal Abbasova əzizi

**YUSİF ƏSƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin I Mamalıq-Ginekologiya kafedrasının əməkdaşları kafedranın dosenti, tədris hissə müdiri Fəridə Abbasovaya atası professor

**YUSİF ƏSƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5663
Sifariş 1788
Qiyməti 40 qəpik